

“Prezident İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslər beynəlxalq aləmdə rəğbət və dəstək qazanıb”

5

# Rusiyanın “Kommersant” nəşri: İlham Əliyev əvvəl olduğu kimi, yenə müzəffər görkəmdə idi


Коммерсантъ

Переговоры неразговариваемых

Как в Сочи при помощи Владимира Путина беседовали Ильхам Алиев и Никол Пашинян

26 ноября президент России провел в Бочаровом Ручье переговоры с президентом Азербайджана и премьером Армении. Все, и даже специальный корреспондент “Ъ” Андрей Колесников, посчитали их не лишенными смысла. Ведь из азербайджанского плена отпустили одного армянского солдата. И договорились, что до конца года договорятся о механизме нанесения на карты новой границы между двумя странами.

Ermənistanın baş naziri Nikol Paşinyan Soçiyə azərbaycanlı həmkarından tez gəlmişdi, lakin üçtərəfli danışıqlar başlanana qədər İlham Əliyevdən fərqli olaraq Paşinyanın Rusiya Prezidenti ilə ikitərəfli görüşü baş tutmadı. Ola bilsin bu səbəbdən, üçtərəfli görüşün...

3

Səs

№ 218 (6418) 30 noyabr 2021-ci il. Qiymәti 40 qәpik

# İlham Əliyevin Aşqabad triumfu!




2

## Tahir Budaqov: “Zəngəzur dəhlizinin açılması qarşılıqlı faydalı əməkdaşlıq üçün daha geniş imkanlar formalaşdıracaq”

4





## Ermənilər Arayiki Xankəndidən qovdular: Separatçılar çətin vəziyyətə düşüblər

# “Lirə böhranı”...



Qardaş ölkədə təşkil olunan aksiyalar Qərbin Azərbaycan - Türkiyə birliyinə siyasi qısqanclığıdır

10

## 63 yaşlı alman “Mançester Yunayted”in baş məşqçisi oldu

“Mançester Yunayted” yeni baş məşqçisini açıqlayıb. ”Qırmızı şeytanlar”ın rəsmi saytında yer alan məlumatda deyilir ki, komandanı...



16



## Rus ekspertlər: Soçidə Rusiya və Azərbaycanın diplomatik qələbə qazandığı böyük geosiyasi oyun getdi

12

Xəbər verdiyimiz kimi, oktyabrın 26-da Soçidə Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan və Rusiya prezidentləri ilə...



## “Zəngəzur dəhlizi artıq reallığa çevrilir”

10

“Prezident İlham Əliyevin Aşqabaddakı çıxışında bir çox məqamlar var idi. İlk olaraq İƏT Azərbaycanın töhfələridir. Çünki...

# İlham Əliyevin Aşqabad triumfu!



**Regional və beynəlxalq, həmçinin Avrasiya məkanında siyasi, strateji diplomatiyanın növbəti uğur tandemi**

Azərbaycan Prezidenti İlham Əliyevin Aşqabada - İqtisadi Əməkdaşlıq Təşkilatının XV Sammitində iştirak etməsi üçün Türkmənistanın paytaxtında rəsmi səfəri başa çatdı. Lakin bu səfərin bir sıra əhəmiyyətli məqamları nəinki postsovet ölkələrinin, eləcə də dünyanın diqqətini cəlb etdi. Hətta belə desək, Sammitin məkanı Türkmənistan olsa da, bütün diqqətlər Azərbaycana və onun Prezidentinə yönəlmişdi - torpaqlarını işğaldan azad edən qalib Sərkərdə, triumfal Lider kimi.

Beləliklə, hazırda dünyanın bir sıra aparıcı ekspertləri İlham Əliyevin Aşqabaddakı görüşlərini və çıxışlarını şərh edərkən bir sıra detalların analizini aparır, maraqlı nəticələrə gəlirlər. Misal üçün, türkmən qazının İran üzərindən Azərbaycana nəql edilməsi ilə bağlı əldə edilən razılaşma bu qəbildəndir. Özü də nəqlin ölçüləri kifayət qədər böyükdür - ildə 1,5-dən 2 milyard kubametrə qədər.

Fərq üçün göstərə bilərik ki, Azərbaycan bu il Avropaya təxmini ölçülərə görə 5-5,5 milyard kubametr qaz nəql edəcək. Türkmənistan qazından isə Bakı, Tehran və Aşqabad, həmçinin Türkiyə ayrı-ayrılıqda öz səmərələrini götürəcəklər, söz yox ki, ödəyənlər də avropalılar olacaqlar.

## Türkmən qazının Bakıya gətirdiyi bonuslar - artıq











## Brüsseldə Azərbaycan borusu ilə axacaq türkmən mavi yanacağının qoxusu yayılmağa başlayıb

Bu razılaşma Azərbaycana münbit siyasi bonuslar da gətirəcək. Bir tərəfdən İkinci Qarabağ müharibəsindən sonra Qərbdən yönələn bəlli neqativlər, siyasətçilərin müsəlman Azərbaycana qarşı yaranan qeyri-standart baxışları neytrallaşdırılacaq, digər tərəfdən, Azərbaycan sübut edəcək ki, yalnız regional deyil, həm də beynəlxalq statusda onun yeri nə qədər önəmli və vacibdir.

Prezident İlham Əliyevin Aşqabadda əldə etdiyi möhtəşəm triumfuna avropalı siyasətçi nəzərindən baxsaq, həm də belə bir mümkün ehtimallı qənaətə də gələ bilərik. Bildiyimiz kimi, bu günlərdə Rusiyanın dövlət başçısı Vladimir Putinin təşəbbüsü ilə Soçidə Azərbaycan və Ermənistan ölkə rəhbərlərinin görüşləri baş tutdu və buna qədərki müddətdə Qərbin məlum siyasi isteblişmenti yenə də bəlli davranışları ilə haqlı tərəf olan Bakıya sarı deyil, məğlubiyyəti ilə barışmaq istəməyən İrəvana sarı "yıxılır", müəyyən mənalarda xristian klubu rollarını oynamağa davam edirdilər. Əbəs deyil ki, Soçi görüşündən əvvəl təyin olunmuş Brüssel görüşündə Bakının mövqeyinə əl verməyən davranışları bəri başdan ehtimal etmək olardı. Lakin Soçi görüşündə əldə eidlən ilkin razılaşmaların ardınca Aşqabaddakı Sammitdə imzalanan sənədlər Avropanın planlaşdırdığı siyasi gedişlərin üzərindən xətt çəkmiş oldu. Daha dəqiq desək, artıq Brüsseldə Azərbaycan borusu ilə axacaq türkmən mavi yanacağının qoxusu yayılmağa başlayıb və İrəvanın maraqları türkmən qazının yanında heçə endirilir. Beləliklə, qeyri-sağlam erməni "problemi" ikinci, hətta üçüncü dərəcəli arxa plana keçir, üstəlik, tədricən aradan götürülür.

Söz yox ki, sözügedən bu və digər əhəmiyyətli məsələlərdə Türkmənistanın dövlət başçısı Qurbanqulu Berdimuhəmmədovun önəmli seçiminə və verilən qərarına da nəhəng təşəkkür düşür!



## Tehranla Bakı arasında son vaxtlara qədər mövcud olan müəyyən narazılıqlara da son qoyulur - yeni münasibətlər erasına başlanılır

Digər tərəfdən, burada regional və dünya miqyasında inkar edilə bilinməyən İranın rolunu qiymətləndirmək olar. İranın bu razılaşmadakı mövqeyi Tehranın Qərblə soyuq münasibətlərini necə deyərlər, isidə bilər. Və bu məqamda, Bakının əhəmiyyətli strateji siyasi-iqtisadi rolu Tehranın yardımına çatır. Təbii ki, Tehranla Bakı arasında son vaxtlara qədər mövcud olan müəyyən narazılıqlara da son qoyulur. Eyni zamanda, 80 milyonluq əhalisi olan qonşusu ilə yeni münasibətlər erasına qədəm qoyur.

Əlbəttə ki, Pakistanın qardaş və sadiq tərəfdaş ölkə olaraq özünü daim Azərbaycanın yanında görməsini, Azərbaycanın isə Pakistanla vahid mövqelər bölüşməsini də qeyd edilən uğurlar sıralamasına aid etmək lazımdır. O cümlədən, beynəlxalq tədbir və sammitlərdə Türkiyə-Azərbaycan-Pakistan üçtərəfli qardaşlıq rəmzi qeyd edilən faktorlarda özünü kifayət qədər tamamlamaqdadır. Daha bir mühüm faktor: Bakı türkmən qazının həcmi hesabına özünün beynəlxalq arenadakı enerji bazarındakı rolunu öz şətrləri ilə oynamaq şansını artırır.

## KTMT üzvü olan ölkələrin dövlət başçılarının İlham Əliyevi Qarabağ zəfəri ilə bağlı təbrik etmələri reallığı

Və əlbəttə ki, Əliyev-Ərdoğan ritorikasının Zəngəzur dəhlizi faktorundakı vurğulanan ifadələri!

Məhz bu ifadələr gəzən bəzi söz-söhbətlərə son qoymuş oldu. Yəni sübut edildi ki, Soçidəki görüş zamanı Putin və Əliyev Paşinyanı bu məsələdə dalana söykədilər və İrəvanın regionun iqtisadi imkanlarına mane olan inadkarlığı, müqaviməti sındırılıb. Aşqabad Sammitinin son nöqtəsini isə KTMT üzvü olan ölkə rəhbərlərinin Azərbaycan Prezidenti İlham Əliyevi Qarabağ müharibəsində qazandığı qələbəsi münasibəti ilə təbrik etmələri faktı qoydu - beləliklə, İlham Əliyevin Aşqabad Sammitindəki iştirakı onun regional və beynəlxalq, həmçinin Avrasiya məkanındakı siyasi və strateji diplomatiyasının növbəti uğur tandemi sırasında yer aldı.

***Rövşən RƏSULOV***

# "Azərbaycan bütün bu məsələləri dəfələrlə irəli sürüb və Rusiya bunu həmişə dəstəkləyib"




Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "Rossiya-1" telekanalına müsahibəsi

**Noyabrın 28-də Rusiyanın "Rossiya-1" telekanalında efirə gedən "Moskva.Kreml.Putin." verilişində Rusiya Federasiyasında işgüzar səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən Soçi hava limanında bu veriliş üçün alınan müsahibə yayımlanıb. AZƏRTAC müsahibəni təqdim edir.**

Prezident İlham Əliyev: Biz Azərbaycanda bunu çox müsbət qiymətləndiririk. Mən bunu bu gün görüşdə də demişəm. Rusiya Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması üçün çox mühüm rol oynayır. Görüşün yekunlarına əsasən qəbul etdiyimiz, nəqliyyat şəbəkələrinin açılması, delimitasiya üzrə komissiyanın işə hazırlaşması üçün atılan addımlar barədə Birgə Bəyanat buna dəlalət edir. Azərbaycan bütün bu məsələləri dəfələrlə irəli sürüb və Rusiya bunu həmişə dəstəkləyib. Buna görə, bugünkü görüş də çox böyük əhəmiyyət kəsb edir.

## Leonid Slutski: "Üçtərəfli görüşü tarixi görüş adlandırmaq olar"

Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşü onların bir il əvvəlki görüşü kimi yenə tarixi görüş adlandırmaq olar. AZƏRTAC xəbər verir ki, RF Dövlət Dumasının Beynəlxalq Məsələlər Komitəsinin sədri Leonid Slutski bu fikri özünün teleqram-kanalında yazıb.

Deputat qeyd edib ki, Soçi görüşündə Qarabağ məsələsində çox mühüm bir addım atılıb. Siyasətçi yazıb: "Rusiya Prezidenti bildirib ki, bu ilin sonuna qədər Ermənistan ilə Azərbaycan arasında sərhədin demarkasiya və delimitasiya mexanizmləri yaradılacaq. Şübhəsiz, bu, sərhədyanı rayonlarda təhlükəsizliyin gücləndirilməsini tələb edəcək, əldə edilmiş razılaşmalar isə hələ həyata keçirilməlidir. Lakin müsbət vektor artıq müəyyən edilib".

L.Slutski qeyd edib ki, hər üç ölkənin liderləri regionun iqtisadi potensialının üzə çıxarılması üçün konkret layihələrin mümkün qədər tezliklə icra edilməli olduğunu ayrıca vurğulayıblar. Deputat yazıb: "Həm Ermənistan, həm də Azərbaycan bizim əsas müttəfiqlərimiz və tərəfdaşlarımızdır".

# Operativ Qərargahın genişləndirilmiş iclası keçirilib

Noyabrın 29-da Azərbaycan Respublikasının Baş naziri, COVID-19 pandemiyasına qarşı mübarizə üzrə Operativ Qərargahın rəhbəri Əli Əsədovun sədrliyi ilə Operativ Qərargahın genişləndirilmiş iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda pandemiya ilə bağlı hazırkı vəziyyət - yoluxmanın miqyası, xəstələrin müalicəsi, peyvəndlənmənin sürəti və miqyası, xüsusi karantin rejiminin tələblərinə





əməl edilməsinə nəzarət üzrə monitorinqlərin nəticələrinə dair məsələlər müzakirə olunub.

Qarşıdan gələn Yeni il şənlikləri zamanı xüsusi karantin rejiminin qaydalarına əməl edilməsinə nəzarətin gücləndirilməsinin məqsədəuyğun olduğu vurğulanıb. İclasda, habelə omikron ştamı və ona qarşı profilaktik tədbirlər müzakirə olunub, müvafiq hazırlıq işlərinə dair tapşırıqlar verilib.

# Yeni Azərbaycan Partiyası ilə "Nur Otan" Partiyası arasında əməkdaşlığın möhkəmləndirilməsi məsələləri müzakirə olunub



**Qazaxıstanın "Nur Otan" Partiyası sədrinin birinci müavini Baurıjan Baybek "Qazaxıstanın partiya-siyasi sisteminin təkamülü: çağırışlar, nailiyyətlər və perspektivlər" Beynəlxalq Forumu ərəfəsində Azərbaycan və Avropa siyasi təşkilatlarının nümayəndələri ilə bir sıra görüşlər keçirib.**

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla görüşdə partiyalararası əməkdaşlığın daha da möhkəmləndirilməsi məsələləri müzakirə olunub.

Görüş zamanı tərəflər qeyd ediblər ki, Qazaxıstanın Birinci Prezidenti - elbası, "Nur Otan" Partiyasının sədri Nursultan Nazarbayev və Azərbaycanın sabiq Prezidenti, Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyev hələ müstəqillik əldə etməzdən əvvəl iki qardaş ölkənin keyfiyyətcə yeni əlaqələrinin təməlini qoyublar. Məhz onların sayəsində artıq suveren Qazaxıstan ilə Azərbaycan arasında möhkəm qarşılıqlı münasibətlər yaranıb.

Qeyd etmək lazımdır ki, bu gün Qazaxıstanda 100 mindən çox etnik azərbaycanlı yaşayır. Onların arasında uğur qazanmış və tanınmış soydaşlarımız da az deyil. Məsələn, "Memlekett$^{3}$kt$^{3}$lqek?rmet " İctimai Birliyinin sədri, alim və ictimai xadim Əsli Osman, Olimpiya çempionu, ağır atletika üzrə dünya çempionu Nicat Rəhimov və sair.

Həmin gün Baurıjan Baybekov Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Avropa mühafizəkarlarının katibi Tom Van Dayk, Böyük Britaniya Mühafizəkar Partiyasının nümayəndəsi, Lordlar Palatasının üzvü Ceyms Uorton və beynəlxalq siyasi məsləhətçilər Assosiasiyasının Direktorlar Şurasının üzvü Riçard Merfi ilə də görüşüb. Görüşdə "Nur Otan" Partiyasının İctimai Siyasət İnstitutu tərəfindən təşkil edilən partiya-siyasi sistemlərin, müasir elektoral trendlərin aktual inkişaf məsələləri, həmçinin qarşıdan gələn "Qazaxıstanın siyasi-partiya sisteminin təkamülü: çağırışlar, nailiyyətlər və perspektivlər" Beynəlxalq Forumunun gündəliyi müzakirə olunub.

Qeyd edək ki, iki gün davam edəcək Forumda Rusiya, Çin, ABŞ, Türkiyə, Böyük Britaniya, Belçika və digər ölkələrin xarici və yerli ekspertləri, siyasi partiyaların, beynəlxalq təşkilatların və diplomatik korpusun nümayəndələri iştirak edəcəklər.

# Rusiyanın "Kommersant" nəşri:

## İlham Əliyev əvvəl olduğu kimi, yenə müzəffər görkəmdə idi


Коммерсантъ

Переговоры неразговариваемых

Как в Сочи при помощи Владимира Путина беседовали Ильхам Алиев и Никол Пашинян

26 ноября президент России провел в Бочаровом Ручье переговоры с президентом Азербайджана и премьером Армении. Все, и даже специальный корреспондент "Ъ" **Андрей Колесников,** посчитали их не лишенными смысла. Ведь из азербайджанского плена отпустили одного армянского солдата. И договорились, что до конца года договорятся о механизме нанесения на карты новой границы между двумя странами.



Ermənistanın baş naziri Nikol Paşinyan Soçiyə azərbaycanlı həmkarından tez gəlmişdi, lakin üçtərəfli danışıqlar başlanana qədər İlham Əliyevdən fərqli olaraq Paşinyanın Rusiya Prezidenti ilə ikitərəfli görüşü baş tutmadı. Ola bilsin bu səbəbdən, üçtərəfli görüşün başlanğıcında Paşinyan barışmaz görünürdü. İlham Əliyev isə əvvəl olduğu kimi müzəffər görkəmdə idi və sərt sakitlik nümayiş etdirirdi.

AZƏRTAC xəbər verir ki, "Kommersant" qəzetinin müxbiri Andrey Kolesnikov Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən aldığı təəssüratları bu nəşrin oxucuları ilə bölüşüb. Rusiya Prezidenti Vladimir Putinin dediyi "İkinci Qarabağ müharibəsindən sonra keçən bir il ərzində çox iş görülüb, rusiyalı sülhməramlılar və atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Mərkəzi fəaliyyətdədir, ən başlıcası, gələcək normal dinc həyat üçün şərait yaradılır" sözlərini sitat gətirən müəllif yazır: "Vladimir Putin bütün bunları deyərkən həqiqətən Azərbaycan Prezidentinin tərəfində idi və bütövlükdə hər şey onu da qane edirdi, - Nikol Paşinyan haqqında isə bunu demək olmazdı. Müharibədə uduzmuş Paşinyan indi qalib gələnin yanında əyləşmişdi və bunu etməyə bilməzdi".

Jurnalist yazır ki, Nikol Paşinyan görüşdə "kal səslə danışır, sanki içərisindəki faciəli emosiyaları zorla boğurdu". A.Kolesnikov Paşinyanın "regionda qeyri-sabitlik olması" və "Azərbaycan qoşunlarının Ermənistanın suveren ərazisinə soxulması" barədə dediklərini şərh edərək yazır: "İlk baxışda bu sözlər nə barədəsə razılıq əldə etmək üçün gəlmiş insanın sözləri deyildi. Yaxşı ki, danışıqların digər iki iştirakçısı üçüncü iştirakçının belə vəziyyətdə olmasını əvvəl də görmüşdülər və başa düşürdülər ki, yarım saatdan sonra o, tanınmaz dərəcədə dəyişə bilər. Onun dediyi bütün sözlər alverçi mövqeyi idi və taleyin qismətindən o, həmin mövqeyə düzəliş etməlidir".

A.Koleskinov sərhədlər mövzusu ilə əlaqədar Prezident Vladimir Putinin dediyi, "bu ilin sonuna qədər iki dövlət arasında sərhədlərin demarkasiya və delimitasiyası üçün mexanizm yaradılması barədə razılıq əldə edilməsi və bu mexanizmlərin yaradılması üçün heç bir maneə olmaması" sözlərini sitat gətirərək bildirir ki, tərəflər arasında razılıq əldə edilib və sərhəd hazırda qoşunların dayandığı xətt üzrə keçəcək.




## Tahir Budaqov:

# “Zəngəzur

## dəhlizinin açılması qarşılıqlı faydalı əməkdaşlıq üçün daha geniş imkanlar formalaşdıracaq”

**Xəbər verdiyimiz kimi, Qazaxıstanın paytaxtı Nur-Sultanda ”Nur Otan” Partiyasının İctimai Siyasət İnstitutu tərəfindən təşkil edilən ”Qazaxıstan siyasi-partiya sisteminin təkamülü: çağırışlar, nailiyyətlər və perspektivlər” Beynəlxalq Forumu keçirilir.**

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti tədbirdə iştirak edir.

Forum iştirakçılarını salamlayan ”Nur Otan” Partiyası sədrinin birinci müavini Bauırjan Baybek görüşün Qazaxıstanın müstəqilliyinin 30 illiyi ərəfəsində keçirildiyini vurğulayıb. O, Qazaxıstanın 30 illik inkişafının əsas nailiyyətləri sırasında sülh və təhlükəsizliyin təmin edilməsini, nüvə arsenalından imtina olunmasını, Semipalatin poliqonunun bağlanmasını, yeni paytaxtın tikintisini və qədim Türküstanın inkişafını, region dövlətləri ilə mehriban qonşuluq münasibətlərini və 15 min kilometr dövlət sərhədinin delimitasiyasını, bazar iqtisadiyyatına keçid üzrə əsaslı islahatları və milli fondun yaradılmasını, sosial və nəqliyyat infrastrukturuna irimiqyaslı investisiyaları, əhalinin sayının artmasını, eləcə də bir çox digər məsələləri qeyd edib.

Onun sözlərinə görə, bütün bunlar səmərəli fəaliyyət göstərən dövlət ictimai-siyasi institutları, inkişaf etmiş insan kapitalı, qazaxıstanlıların həyat səviyyəsinin yaxşılaşdırılması, həmçinin müstəqillik illərində dominant siyasi qüvvə olan çoxpartiyalı sistem - ”Nur Otan” Partiyası sayəsində mümkün olub. 2019-cu ildən partiya-siyasi sistemin inkişafı dövlət başçısı Kasım-Jomart Tokayevin həyata keçirdiyi siyasət nəticəsində davam edir.

Hazırkı qlobal problemlərin bütün dövlətlərdən sıx qarşılıqlı fəaliyyət və koordinasiya tələb etdiyini, hakim partiyalar arasında əməkdaşlığın xüsusi əhəmiyyətini vurğulayan Bauırjan Baybek Forumun yalnız partiyaların deyil, həm də dövlətlərin və xalqların dostluğunun, gələcək əməkdaşlığının möhkəmlənməsinə töhfəsini verəcəyinə əminliyini bildirib.





Qazaxıstan Prezidenti Administrasiyası rəhbərinin birinci müavini Dauren Abayev deyib ki, partiya sisteminin təkamülünün əsas mərhələlərindən biri bu yaxınlarda ”Nur Otan” lideri Nursultan Nazarbayevin hakim partiyanın sədri səlahiyyətlərinin Prezident Kasım-Jomart Tokayevə verilməsi haqqında qərarı olub.

Plenar iclasda çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini Tahir Budaqov bildirib ki, Forum siyasi partiyalar arasında münasibətlərin inkişafına, fikir mübadiləsinə və bu sahədə zəngin təcrübəyə mühüm töhfə verəcək.

Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin müxtəlif sahələri əhatə etdiyini, dostluq, qardaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslandığını, ümummilli lider Heydər Əliyevin və elbası Nursultan Nazarbayevin Azərbaycan-Qazaxıstan münasibətlərində etimadın qurulmasına və inkişaf etdirilməsinə, Yeni Azərbaycan Partiyası ilə ”Nur Otan” Partiyası arasında səmərəli və qarşılıqlı faydalı münasibətlərin yaradılmasına böyük töhfə verdiklərini vurğulayan T.Budaqov bu gün də Azərbaycan və Qazaxıstan prezidentləri İlham Əliyevin və Kasım-Jomart Tokayevin şəxsi dostluq əlaqələrinin, məqsədyönlü siyasətinin ölkələrimiz arasında dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətlərinin uğurlu inkişafını təmin edən aparıcı amil olduğunu bildirib.

”Ölkələrimiz arasında istər ikitərəfli, istərsə də çoxvektorlu münasibətlər yüksək dinamikaya malikdir, onların inkişafı davamlı xarakter daşıyır və imzalanmış ikitərəfli sənədlər əlaqələrimizin keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi üçün əlverişli siyasi-hüquqi zəmin yaradıb. 2021-ci il noyabrın 12-də İstanbul şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə səsləndirilən fikirlər dost və qardaş ölkələr, o cümlədən Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin yüksək səviyyədə olduğunu göstərdi və dövlətlərimizin qarşısında yeni perspektivlər açdı”, - deyə YAP Sədrinin müavini qeyd edib.

O deyib ki, bununla yanaşı, Azərbaycanın Vətən müharibəsində tarixi Qələbəsi həm Cənubi Qafqaz regionunda, həm də bütövlükdə Avrasiyada yeni geostrateji reallıqların formalaşmasına gətirib çıxarıb. Yeni yaradılmış əməkdaşlıq platforması nəinki regionun xalqları və dövlətlərinə, həm də bir çox ölkələrə, o cümlədən regional və beynəlxalq güc mərkəzlərinə, həmçinin dost Azərbaycana tərəfdaş olan ölkələrə mühüm dividendlər vəd edir.

YAP Sədrinin müavini bildirib ki, Zəngəzur dəhlizinin açılması, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası qarşılıqlı faydalı əməkdaşlıq üçün daha geniş imkanların formalaşmasına imkan verəcək. Şübhəsiz ki, bu, əhəmiyyətli iqtisadi potensiala və tranzit imkanlarına malik Qazaxıstan üçün də faydalı, səmərəli və əhəmiyyətli olacaq.

Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafından bəhs edən Tahir Budaqov hər iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası ilə ”Nur Otan” Partiyası arasında müntəzəm təmasların çox mühüm rol oynadığını vurğulayıb.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyaları və dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən Yeni Azərbaycan Partiyasının fəaliyyətinin bəzi aspektləri barədə məlumat verən Tahir Budaqov YAP ilə birləşmək istəyən 6 siyasi partiyanın müraciətinin müsbət cavablandırılmasının, Partiyanın strukturunda ilk dəfə Veteranlar Şurası yaradılmasının Yeni Azərbaycan Partiyasının fəaliyyətində dinamizmə gətirib çıxaracağını diqqətə çatdırıb.

Bu gün partiya üzvlərinin böyük hissəsini gənclərin təşkil etdiyini və yeni üzvlərin mütləq əksəriyyətinin gənclər olduğunu vurğulayan T.Budaqov Yeni Azərbaycan Partiyasının gənclər üçün imkanların yaradılmasına, onlarda milli şüurun inkişafına və vətənpərvərlik ruhunun yüksəldilməsinə həmişə xüsusi diqqət yetirdiyini, bu prosesin bu gün də davam etdirildiyini deyib. Bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın inzibati-coğrafi sərhədlərindən kənarda çox mühüm missiya yerinə yetirir - beynəlxalq münasibətləri formalaşdıraraq inkişaf edirir.

Diqqətə çatdırılıb ki, regionun ən böyük siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının digər ölkələrin siyasi partiyaları və partiya təşkilatları ilə səmərəli münasibətləri ölkəmizin beynəlxalq əlaqələrinin daha da möhkəmlənməsinə mühüm töhfədir.

Sonda Tahir Budaqov bildirib: ”Beynəlxalq forum partiyalarımız arasında münasibətlərin inkişafı üçün mühüm platforma olacaq. Forumun işinə və onun bütün iştirakçılarına bir daha uğurlar arzulayıram. Fürsətdən istifadə edərək Sizi qarşıdan gələn Birinci Prezident Günü və ölkənin müstəqilliyinin 30 illiyi münasibətilə təbrik edir, dost Qazaxıstan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram”.

Digər çıxış edənlər Qazaxıstanın partiya-siyasi sisteminin formalaşmasında ”Nur Otan” Partiyasının rolunu qiymətləndirib, demokratiya və ümumi dəyərlərin inkişafında irəliləyişlə bağlı təəssüratlarını bölüşüblər. Forum işini noyabrın 30-da davam etdirəcək.

# “Prezident İlham Əliyevin

## irəli sürdüyü qlobal təşəbbüslər beynəlxalq aləmdə rəğbət və dəstək qazanıb”



**Noyabrın 28-də İspaniyanın paytaxtı Madrid şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsünə uyğun olaraq Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis iclası keçirilib. Əlliyə yaxın ölkədən 200-dək nümayəndənin iştirak etdiyi təsis iclasını Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova açıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, açılış çıxışında iclas iştirakçılarını salamlayan Sahibə Qafarova deyib: ”Biz bu gün 60 il ərzində araşdırılmamış qalan bir ölçünün - üzv ölkələr arasında əməkdaşlığın parlament ölçüsünün əsasını qoyuruq. Altmış il əvvəl bu forumu yaradan Qoşulmama Hərəkatının təsisçilərinin məqsədi Bandunq prinsiplərinə tam uyğun olaraq, bütün xalqların dinc yanaşı yaşamasına və davamlı inkişafına töhfə vermək idi. Onların uzaqgörənliyi və məqsədyönlülüyü beynəlxalq ictimaiyyətin həmfikir üzvlərinin birləşməsinə və üzv dövlətlərin sayına görə dünyada ikinci ən böyük beynəlxalq təsisatın yaranmasına səbəb olub”.

Milli Məclisin sədri qeyd edib ki, hazırda bəşəriyyət son dərəcə çətin günlərdən keçir. Ayrı-seçkiliyin, irqçiliyin və ksenofobiyanın, beynəlxalq hüquqa etinasızlıqla müşayiət olunan siyasi gərginlik və böhranların artması, hələ də davam edən COVID-19 pandemiyası və onun sosial-iqtisadi mühitə mənfi təsirləri, iqlim dəyişikliyi və digər qlobal miqyaslı çağırışlar bütün dünyada səylərin multikulturalizm, beynəlxalq əməkdaşlıq və həmrəylik ruhunda səfərbər olunmasını zəruri edir.

İclasda Sahibə Qafarova COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində Qoşulmama Hərəkatı adından qurumun sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü uğurlu qlobal təşəbbüsləri xatırladıb, həmin təşəbbüslərin beynəlxalq aləmdə rəğbət və dəstək qazandığını qeyd edib.

Bildirilib ki, COVID-19 böhranı ilə əlaqədar Qoşulmama Hərəkatı Təmas Qrupunun Zirvə Toplantısının təşkili, pandemiya ilə mübarizədə təşkilata üzv ölkələrin əsas humanitar və tibbi ehtiyaclarına dair vahid məlumat bazasının yaradılması, koronavirusla bağlı vəziyyətin müzakirəsi üçün BMT Baş Assambleyasının Xüsusi Sessiyasının çağırılması, həmçinin BMT-nin İnsan Hüquqları Şurası tərəfindən bütün ölkələr üçün COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi haqqında qətnamənin qəbul edilməsi görülən tədbirlərdən yalnız bir neçə nümunədir. Sahibə Qafarova qeyd edib ki, cari il noyabrın 17-də Qoşulmama Hərəkatının təşəbbüsü ilə BMT Baş Assambleyasının üçüncü komitəsi səs çoxluğu ilə COVID-19-a qarşı vaksinlərin ədalətsiz paylanmasına dair qətnaməni qəbul edib.

Milli Məclisin sədri hazırkı taleyüklü beynəlxalq vəziyyətdə Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentarilərinin öz ölkələrindəki icra hakimiyyətlərinin səylərinə beynəlxalq səviyyədə töhfə vermələrinin vacibliyini qeyd edib. O, Qoşulmama Hərəkatının prinsip və dəyərlərini möhkəmləndirməyin və təşviq etməyin zəruriliyini vurğulayıb. Sahibə Qafarova tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, təşkilatın 2019-cu il oktyabrın 25-26-da Bakıda keçirilmiş Zirvə Görüşündə dövlət və hökumət başçıları Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentariləri ilə qarşılıqlı fəaliyyəti və əməkdaşlığı genişləndirmək və dərinləşdirmək barədə qərar qəbul ediblər. Azərbaycan bu anlayışlara əsaslanan sədrliyi dövründə Hərəkatın fundamental prinsiplərinə tam və səmərəli riayət olunmasında parlamentarilərin mühüm rol oynaya biləcəyini qəbul edərək, Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış edib.

Azərbaycan parlamentinin rəhbəri bildirib ki, bu gün təsis olunan Parlamentlər Şəbəkəsi Qoşulmama Hərəkatının ideya və prinsipləri barədə məlumatların qurumun üzv dövlətləri və xalqları arasında yayılmasına və təbliğinə töhfə verəcək. Bununla yanaşı, təşkilat üzv dövlətlərin parlamentləri arasında əməkdaşlıq platforması rolunu oynaya bilər. Parlamentlər Şəbəkəsi sülh, təhlükəsizlik, insan hüquqları və inkişafla bağlı parlament təcrübəsinin mübadiləsinə də imkan yaradacaq, qurumun böyük tədbirlərində bəyannamə sənədlərinə uyğun olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin vəzifə və öhdəliklərinin gerçəkləşdirilməsinə parlament dəstəyi verəcək. Bu təsisat hamımızı narahat edən məsələlərin həllinə parlament töhfəsini verməkdə forum rolunu oynayacaq. Çoxtərəfliliyin yayılması üçün Parlamentlər Şəbəkəsi əlavə hərəkətverici qüvvə olacaq. Tədbirdə Sahibə Qafarova vurğulayıb ki, bu Şəbəkə qeyd olunan dəyərlərə və missiyalara xidmət etməklə yanaşı, digər beynəlxalq parlament strukturları ilə, o cümlədən Parlamentlərarası İttifaqla davamlı əlaqələr yaradacaq. Qeyd olunub ki, Parlamentlər Şəbəkəsinin növbəti tədbiri gələn il Bakıda keçiriləcək.

İclasda çıxış edən Parlamentlərarası İttifaqın sədri Duarte Poçeko deyib: ”Biz təcrübələrimizi bölüşməli, ikitərəfli əlaqələrimizi daha da genişləndirməliyik. Qlobal problemləri birlikdə dəyərləndirməli və onların həlli yollarını birlikdə tapmalıyıq. Bu baxımdan Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin yaradılması əlavə bir imkandır. Bu, dialoq, əməkdaşlıq, demokratiyanın gücləndirilməsi üçün yeni platformadır”.

Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunkonq isə çıxışında deyib ki, Parlamentlər Şəbəkəsi bəşəriyyətdə sülhün və sabitliyin bərqərar olmasına töhfəsini verəcək. Xüsusilə bütün dünyanın COVID-19 pandemiyası ilə üz-üzə qaldığı bir vaxtda qanunverici orqanlar arasında dialoqun intensivləşdirilməsinə, parlament diplomatiyasının gücündən istifadə edərək ortaq qərarlar qəbul olunmasına xüsusi ehtiyac var. Bu baxımdan o, Parlamentlər Şəbəkəsinin yaradılmasının əhəmiyyətini xüsusi qeyd edib.

Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop çıxış edərək artıq 60 ildir mövcud olan və üzvlərinin sayı 120-yə çatan Qoşulmama Hərəkatının beynəlxalq ədalətin, sülhün təmin edilməsi baxımından çox böyük potensiala malik olduğunu vurğulayıb. TBMM-in sədri Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının prinsiplərinin təbliği istiqamətində atılan addımların təşkilatı daha da gücləndirəcəyinə inandığını vurğulayıb. Mustafa Şentop davam etməkdə olan COVID-19 pandemiyasının dünyada hökm sürən ədalətsizlikləri bir daha gözlər önünə sərdiyini bildirib və yeni təsis olunan Parlamentlər Şəbəkəsinin əməkdaşlığı daha da dərinləşdirəcəyinə inandığını söyləyib.

Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysər hazırda bütün dünya, o cümlədən demokratik dəyərlərin bir sıra təhdidlərlə üz-üzə qaldığını, bu qlobal problemlərin həlli üçün parlamentlərarası dialoqun genişləndirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib. Deyib ki, Qoşulmama Hərəkatının yeni təsis edilən Parlamentlər Şəbəkəsi bəşəriyyəti təhdid edən çağırışların həlli istiqamətində ən önəmli platformalardan biri olacaq. İclasın sonunda Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis edilməsinə dair Madrid Bəyannaməsi qəbul olunub.

## Yücel Karauz: Azərbaycanın Qarabağ Zəfəri İqtisadi Əməkdaşlıq Təşkilatının da fəaliyyətini canlandırıb



Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 gündə qazandığı rəşadətli Qələbə ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu və mövqelərini zirvələrə yüksəldib. Azərbaycan bu tarixi Qələbədən sonra istər ikitərəfli və üçtərəfli münasibətlərdə, istərsə də beynəlxalq platformalarda tamam fərqli münasibətlə qarşı-qarşıyadır. İndi tərəflər Azərbaycanın bütün sahələrdəki gücünü görür, yüksək dəyərləndirir və bununla hesablaşırlar.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan türkiyəli general Yücel Karauz bildirib. Azərbaycanın Qarabağ Zəferinin noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərinə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısının böyük uğurla başa çatmasına birbaşa təsir göstərdiyini, eləcə də İƏT-in fəaliyyətini canlandıran amil olduğunu diqqətə çatdıran general Yücel Karauz deyib: ”Prezident İlham Əliyev böyük müdrikliklə regionda tamamilə yeni əməkdaşlıq mühiti yaradıb. İndi hər kəs regiondakı sülh və inkişaf platformasına qatılmaqda və bundan bəhrələnməkdə maraqlıdır. Cəmi doqquz ay müddətində Füzuli Beynəlxalq Hava Limanı kimi strateji əhəmiyyətli obyekti tikdirməyi bacaran Azərbaycanın təqdim və təklif etdiyi bütün infrastruktur layihələr beynəlxalq əhəmiyyət daşıyır və cəlbedicidir. Bir neçə gün əvvəl Soçidə keçirilən üçtərəfli görüş və onun nəticələri də təsdiq edir ki, bütün tərəflər regionda yaranmış yeni vəziyyətlə hesablaşaraq qərarlarını ona uyğun vermək məcburiyyətindədirlər”.

General Yücel Karauz əminliklə bildirib ki, İƏT-in XV Zirvə Toplantısı çərçivəsində Azərbaycan, İran və Türkmənistan arasında imzalanan qaz sazişi Azərbaycan enerji strategiyasını daha da gücləndirəcək. Azərbaycan faktiki olaraq Xəzərin ətrafında birbaşa özünə bağlı olan dairəvi qaz kəməri yaradır.

## Nurhan əl-Şeyx: Soçi görüşü Cənubi Qafqazda sülhün təmin olunması istiqamətində atılmış mütərəqqi addımdır



Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə keçirilən görüş və imzalanmış Bəyanat Cənubi Qafqaz regionunda sülhün təmin edilməsi istiqamətində atılmış daha bir mütərəqqi addımdır.

Bunu AZƏRTAC-ın xüsusi müxbirinə açıqlamasında Misir Xarici Əlaqələr Şurasının üzvü, Qahirə Universitetinin Rusiya Araşdırmalar Mərkəzinin direktoru professor Nurhan əl-Şeyx söyləyib. O deyib: ”Ötən il Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi ilə başa çatan müharibədən sonra ən vacib məsələ dayanıqlı sülhün təmin olunmasıdır. Bu baxımdan, sərhədlərin demarkasiyası zəruridir. Sözügedən məsələdə razılıq əldə olunması müsbət amildir. Eyni zamanda, Azərbaycan-Ermənistan sərhədində gərginliyin aradan qaldırılması da regional təhlükəsizliyə töhfə olacaq. Tərəflər çoxillik münaqişəyə son qoymalı, etimad mühitinin yaradılması istiqamətində yeni addımlar atmalıdırlar. Azərbaycan Prezidenti İlham Əliyevin bu məsələ ilə bağlı konstruktiv mövqeyi təqdirəlayiqdir. Bununla yanaşı, Ermənistan rəhbərliyi də sülhün bərqərar olması üçün əməli addımlar atmalı, müharibədən sonra yaranmış yeni reallıqla hesablaşaraq kommunikasiyaların bərpasına şərait yaratmalıdır”.

Soçidə keçirilən görüşün hər iki tərəf üçün əhəmiyyətli olduğunu qeyd edən professor vurğulayıb: ” Düşünürəm ki, Cənubi Qafqaz regionunda qonşu dövlətlər arasında dinc yanaşı yaşamağın, əməkdaşlığın vaxtı çatıb. Heç bir xalq müharibə istəmir və azərbaycanlılarla ermənilər sülh şəraitində yaşamalı, sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyünə hörmət prinsipləri əsasında bütün problemləri konstruktiv dialoq vasitəsilə həll etməlidirlər”.

# Ermənistanın KTMT fiaskosu...

Türkmənistanın paytaxtı Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) növbəti, 15-ci Zirvə Görüşünün yekun Bəyannaməsində Azərbaycana təbrik ünvanlanıb. Sənəddə Azərbaycan xalqı və hökuməti işğal edilmiş ərazilərin azad edilməsi və ərazi bütövlüyünün bərpa olunması münasibətilə təbrik edilir: ”Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsinin Qafqaz regionunda davamlı sülhə və iqtisadi tərəqqiyə yol açacağına inanırıq”. Azərbaycana təbrik ünvanlayan ölkələrdən üçünün Ermənistanın da təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvü olması isə Aşqabad Bəyannaməsində ərazi bütövlüyümüzün təmin edilməsi ilə bağlı yer alan məqamların əhəmiyyətini daha da artırır, həmçinin bu quruma üzvü olan ölkələrin, o cümlədən Qırğızıstan və Qazaxıstanın Azərbaycanı ikinci Qarabağ müharibəsində qələbə qazanması münasibətilə təbrik etməsi, Belarusun regionda münaqişənin bitməsini, regionda sülhün bitməsini dəstəkləməsi Ermənistanın uğurlu xarici siyasətinin, o cümlədən Qarabağ məsələsində KTMT-dən hər hansı (hərbi, siyasi-red) dəstək alacağı ilə bağlı planlarının xülya olduğunu bir daha sübuta yetirməsi, şübhəsiz ki, Prezident İlham Əliyevin növbəti diplomatik uğuru və qələbəsi, Ermənistanın KTMT fiaskosudur.

Təşkilatın aparıcı ölkələri Azərbaycan rəhbərliyini və xalqını Qarabağ müharibəsində qələbə münasibətilə təbrik etməklə bir zamanlar mövcud olmuş bu münaqişədə rəsmi Bakının yanında yer aldıqlarını açıq-aşkar bildirdilər. Həmin ölkələr Ermənistanla uzun müddətdir bir təşkilatda təmsil olunmalarına baxmayaraq, Qarabağı Azərbaycanın ayrılmaz ərazisi kimi qəbul etdiklərini nümayiş etdirdilər.

*KTMT-yə üzv ölkələrin Azərbaycanı təbrik etməsi Ermənistanın bu qurumda heç bir dəyərə malik olmadığının göstəricisidir*



### “KTMT-ya müraciət etmək Ermənistanın qorxaqlığının növbəti təzahürüdür”

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət etməsi onun qorxaqlığının növbəti təzahürüdür. Dövlət başçısı bildirib ki, bu çirkin əməlləri törədəndən və Azərbaycan Ordusu tərəfindən layiqli cavab alandan sonra Ermənistan dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət etməklə, ona-buna yalvarmaqla və hay-haray qaldıraraq ”qoymayın bizi burada indi boğacaqlar, məhv edəcəklər” deməklə Azərbaycan dövlətinin, liderinin diplomatik siyasəti qarşısında bir daha qorxaqlıqlarını göstərir. Belə olan halda KTMT-nın buna nə dəxli var? Çünki Azərbaycan Ermənistanın dövlət sərhədini pozmayıb, təxribat törətməyib və törətmir, Ermənistan ərazisinə (əgər belə deməli olsaq-R.H) keçməyib. Belə olan halda KTMT-nın bu işə nə dəxli ola bilər? İkincisi, bir daha bu addım onların acizliyini, qorxaqlığını göstərir və onu da ilk gündən anlayırlar ki, qalib lider diplomatik siyasəti qarşısında təkbaşına duruş gətirə bilməyəcəklər və bilmirlər də! Və Ermənistana başından güclü zərbə vurandan sonra onlar dərhal KTMT-yə qaçdılar ki, bunları müdafiə eləsin. Prezident İlham Əliyev Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində çıxışı zamanı bildirib ki, Ermənistana başından güclü zərbə vurandan sonra onlar dərhal KTMT-yə qaçdılar ki, bunları müdafiə eləsin: ”Mən sizin və Azərbaycan xalqının diqqətini bir məsələyə də cəlb etmək istəyirəm. Yəqin siz eşitmişiniz ki, biz Ermənistana başından güclü zərbə vurandan sonra onlar dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qaçdılar ki, bunları müdafiə eləsin. Tələb edirdilər ki, KTMT Azərbaycanı qınayan bəyanat versin. Buna nail ola bilmədilər, heç bir bəyanat verilmədi. Sadəcə olaraq, bu hadisə ilə bağlı ümumi sözlərdən ibarət bir şərh verildi, vəssalam. Ancaq bildirməliyəm ki, KTMT-ya 6 ölkə üzvdür. Onlardan üçü beynəlxalq təşkilatlar yolu ilə Azərbaycana dəstək göstərdilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında, eyni zamanda, KTMT-da üzv olan Qazaxıstan və Qırğızıstan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası vasitəsilə bizə dəstək oldular. Belarus Qoşulmama Hərəkatında təmsil olunur. O da Qoşulmama Hərəkatının bəyanatına qoşularaq bizə dəstək oldu. Yəni, altı ölkədən üçü Azərbaycanı birmənalı şəkildə dəstəklədi və başqa cür ola bilməzdi. Çünki biz onlarla dostuq, yaxşı günlərdə, çətin günlərdə onlar bizə etibar edə bilərlər”.

### Kasım-Jomart Tokayev: ”Azərbaycanı ikinci Qarabağ müharibəsində təbrik edərək, Ermənistanın KTMT-yə tuşlanan ümidlərini birdəfəlik yox etdi”

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev bildirib ki, Azərbaycanı ikinci Qarabağ müharibəsində təbrik edərək, Ermənistanın KTMT-yə tuşlanan ümidlərini birdəfəlik yox etdi. Prezident İlham Əliyevi təbrik edən Qazaxıstan lideri ”Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyünün bərpası ilə əlamətdar olan milli bayramınız münasibətilə Sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu əlamətdar tarix Azərbaycan Respublikasının şanlı salnaməsinə ölkənizin dövlətçiliyinin və suverenliyinin möhkəmləndirilməsi naminə xalqınızın birlik, mətanət, əyilməz iradəsinin rəmzi kimi həmişəlik yazılmışdır”, - deyə Kasım-Jomart Tokayev vurğulayıb. Qeyd edək ki, noyabrın 8-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Aleksandr Lukaşenko Azərbaycanla Ermənistan arasında çoxillik qarşıdurmanın bir il bundan əvvəl başa çatması faktını alqışlayıb. O, hər iki tərəfin xeyrinə olan sülh quruculuğu prosesinin başlanmasının vacibliyinə xüsusi diqqət yetirib. Belarus Prezidenti vurğulayıb ki, Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının və qarşılıqlı iqtisadi fəaliyyətin bərpası regionda möhkəm sülhün əsası olmalı, orada yaşayan bütün xalqların rifahını və təhlükəsizliyini təmin etməlidir.

Həmçinin, Qırğızıstan Prezidenti Sadır Japarov da qələbə münasibətilə Azərbaycan Prezidentini və xalqını təbrik edib. S.Japarov Qırğızıstanın eyni tarixi kökə, mədəniyyətə, ortaq dəyərlərə malik olan Azərbaycanı qardaş ölkə kimi qəbul etməsini diqqətə çatdırıb. O, İkinci Vətən Müharibəsində qazanılan möhtəşəm qələbə və dədə-baba torpaqlarımızın işğaldan azad olunması münasibətilə Prezident İlham Əliyevi və bütün Azərbaycan xalqını təbrik edib, 10 noyabr 2020-ci il tarixli bəyanatın regionumuzda davamlı və uzunmüddətli sülhün təmin edilməsi zəmin yaradacağına ümidvar olduğunu söyləyib.

### Ermənistanın KTMT-də hər hansı rolu, nüfuzu yoxdur

Bir sözlə, sadalananlar göstərir ki, həm regionda, həm də dünya miqyasında ciddi rol oynamayan Ermənistanın KTMT-də hər hansı rolu, nüfuzu yoxdur. Belə ki, istər ikinci Qarabağ müharibəsindən əvvəl, istərsə də 44 günlük müharibənini gedişatında Ermənistan rəhbərliyi dəfələrlə KTMT-dən dəstək alacağı, habelə təşkilatda Azərbaycan əleyhinə qərarların qəbul ediləcəyi barədə açıqlamalar vermişdilər. Lakin İrəvan rəhbərliyinin bu vədlərinin xülyadan başqa bir şey olmadığı üzə çıxdı. Bu, belə də olmalı idi.

Çünki bütün bunlar Azərbaycan Respublikasının Prezidentinin yürütdüyü uğurlu xarici siyasətin, mükəmməl diplomatiyanın bəhrəsidir. Müzəffər Ali Baş Komandan yalnız hərbi sahədə deyil, siyasi sferada da Ermənistanı ağır məğlubiyyətə uğradıb. Prezident İlham Əliyevin regional və dünya miqyasında yürütdüyü uğurlu xarici siyasət Azərbaycanın dünya ölkələri ilə səmərəli ikitərəfli və çoxtərəfli əməkdaşlığını daha da dərinləşdirib. Bu isə aparıcı dövlətləri Azərbaycanın təkcə iqtisadi sahədə deyil, siyasi, hərbi sferalarda da müttəfiqinə çevirib. Son nəticə isə göz qabağındadır: - Ermənistanın KTMT-yə olan ümidləri boşa çıxıb, planları fiaskoya uğrayıb.

### Rus diplomat İrəvanı hədələdi: “Üçtərəfli anlaşmanı imzalamısansa...”

Rusiyanın Ermənistandakı səfirinin keçmiş müşaviri Viktor Krivopuskov Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə keçiriləcək görüşü ilə bağlı ”Hraparak”ın sualına cavab verərkən KTMT-nin 44 günlük müharibə və bundan sonrakı prosesdə Ermənistanın müraciətinə adekvat cavab verməməsinə də münasibət bildirərək İrəvanın baş verənlərlə bağlı KTMT və Rusiyaya rəsmən müraciət etmədiyini söyləyib: ”Mətbuatda dəfələrlə yazılıb və Vladimir Putin də bildirib ki, KTMT və Rusiyanın cavabı üçün nizamnamələr və lazımi prosedurlar var. Erməni tərəfi hər şeyi sözdə edir, amma sözünü hüquqi baxımdan gücləndirmir ki, bu da açıq-aşkar təxribatçı amildir”. Jurnalistin ”Bəlkə İrəvanın şübhəsi var ki, hətta qanuni müraciət olunsa belə dəstək olmayacaq?” sualını rusiyalı siyasətçi belə cavablandırıb: ”Bəs niyə qoşulmusunuz? Təbii ki, bu suala Ermənistanın indiki rəhbərliyi cavab verməlidir. Yenə soruşuram, KTMT-yə kim müraciət edib? Biz yalnız söz eşidirik. Necə deyim, sözü əmələ çevirmirlər”.

Sabiq diplomatın Brüsseldə keçiriləcək görüşdə liderlərin hansısa sənədi imzalaması məsələsinə münasibəti belə olub: ”Bəli, xalq bilməlidir ki, hökumət üçtərəfli formatdan kənara çıxaraq hansı addımları atır. Yaxud Ermənistan hökuməti ora necə gedir və orada hansı məsələlər müzakirə olunacaq? Bunu mən bilmirəm, çünki Ermənistanın baş naziri deyiləm. Əgər o, öz xalqına məlumat verməsə, o zaman Moskva və Brüssel arasında tamamilə sıfır olan münasibətləri nəzərə almalıdır. Əgər bu məsələ üçtərəfli səviyyədə razılaşdırılıbsa, bunlar Moskva, Bakı və İrəvan arasında həll olunmalıdır”.

### Üzeyir Cəfərov: “Ermənistan təxribatlar törətməyə təhrik olunur və bu, onların xeyrinə olmayacaq”

Hərbi ekspert Üzeyir Cəfərov deyir ki, Azərbaycan Ermənistanın daha ağır təxribatlarına hazır olmalıdır. Onun sözlərinə görə, baş verən hadisələrin bir neçə səbəbi var, onlardan biri də Türk Şurasının yaranması ilə bağlıdır: ”Türk Dövlətləri Təşkilatının yaranması və orada Azərbaycanın regionda əldə etdiyi qələbə və digər məsələlər bəzilərinə hələ də pis təsir edib. Azərbaycan qətiyyət göstərməli və məsələlərin həllinə nail olmalıdır”.Ermənistan rəsmilərinin KTMT-yə və Rusiyaya müraciətlərinə gəlincə isə Üzeyir Cəfərov bildirib ki, Ermənistan tərəfi 44 günlük müharibədə də KTMT-nin aktiv müdaxiləsini çox istəyirdi, amma bu alınmadı. Ekspertin sözlərinə görə, Ermənistan təxribatlar törətməyə təhrik olunur və bu, onların xeyrinə olmayacaq: ”Artıq illərdir bu hadisələr təkrarlanır. Ermənistan düzəlmək istəmir və başqalarının fikirləri ilə oturub-durur. Onların heç gücləri də yoxdur ki, Azərbaycanla mübarizə apara bilsin. Ermənistanı bu məsələlərə təhrik edənlər var, amma zərbə elə ermənilərin özlərinə dəyəcək. Onları təhrik edənlər isə kənarda qalacaqlar”.

Göründüyü kimi, Ermənistan tərəfindən sərhəddə törədilən təxribatlar Azərbaycan dövlətçiliyinə qarşı xain planın tərkib hissəsidir və təxribatları törədənlər Ermənistan hökuməti və ordusundakı revanşist qüvvələrdir, məqsədləri isə Paşinyan hakimiyyətini devirməkdir.Və bu gün Cənab Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevirilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər.

Bir sözlə, bu gün əldə olunan bu uğurların nəticəsidir ki, KTMT-yə üzv olan ölkələr Azərbaycanı təbrik etməklə bir daha Ermənistanın bu qurumda heç bir dəyərə malik olmadığının təsdiqlədi. Çünki Azərbaycan hər zaman hər bir görüşlərdə sülhməramlı niyyətini ortaya qoyur və məğlub tərəf sülh müqaviləsinin şərtlərini qəbul etməli və razılaşmalıdır!

**RƏFİQƏ HÜSEYNOVA**

# Vüqar Rəhimzadə:
# “İƏT-in çağırışı strateji tərəfdaşlığın möhkəmlənməsinə imkan yaradacaq”

**“Keçirilən hər bir beynəlxalq əhəmiyyətli tədbirin, toplantının əhatə etdiyi mövzu ilə yanaşı, ölkələrin malik olduqları imkanların təqdimatı baxımından da xüsusi əhəmiyyət kəsb etdiyi aydındır. Dünyanın diqqətində olan Soçi görüşünün ardınca Türkmənistanın paytaxtı Aşqabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısının keçirilməsi son günlər beynəlxalq gündəmi zəbt edən vacib məsələlər sırasındadır. İstər tədbirdəki çıxışlarda, istərsə də Zirvə Toplantısında iştirak edən Prezident İlham Əliyevin reallaşdırdığı ikitərəfli görüşlərdə Azərbaycanın regionda və dünyada artan rolunun təqdir edilməsi, ölkəmizin tarixi Zəfərinin yaratdığı reallıqların böyük perspektivlər vəd etdiyinin vurğulanması uğurlu siyasətimizin məqsədyönlülüyünü, gələcəyə hesablandığını bir daha təsdiqlədi.**





Azərbaycanın İƏT-in fəal üzvü kimi beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində hər iki quruma üzv dövlətlərlə səmərəli əməkdaşlıq qurması xarici siyasətimizin prioritet istiqamətlərindəndir”. Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə qeyd edib ki, Zirvə Toplantısında Prezident İlham Əliyev tərəfindən ölkəmizin 44 günlük İkinci Qarabağ müharibəsini yaşamasına, hazırkı dövrdə tarixi Zəfərimizin yaratdığı reallıqlar fonunda işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinin geniş miqyas almasına, həmçinin dünyanı cənginə almış koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin gücləndirilməsinə baxmayaraq dayanıqlı inkişafını təmin etməsi konkret rəqəmlər əsasında diqqətə çatdırıldı: ”Bu uğurlarımız Azərbaycanın beynəlxalq maliyyə qurumlarının hesabatlarında liderliyini qorumasını şərtləndirir. Dünya Bankı daim Azərbaycanın adını ən islahatçı ölkələr sırasında qeyd edir. Davos İqtisadi Forumunun hesabatlarında ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliyi xüsusi önə çəkilərək hər il Azərbaycan reytinq cədvəlində irəliləyir. Onu da qeyd edək ki, Davos İqtisadi Forumunun hesabatlarında Azərbaycanın yol infrastrukturunun yenilənməsinə, təkmil layihələrin icrasına göstərdiyi diqqət də xüsusi yer alır və yüksək qiymətləndirilir. Düşünürəm ki, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinin başa çatmasından sonra Azərbaycan bu reytinq cədvəllərində daha da irəliləyəcək. Həm bu torpaqların malik olduğu iqtisadi potensial ölkənin dayanıqlı inkişafına yönəldiləcək, həm də təkmilləşən yol infrastrukturu Azərbacanın mövqeyinə öz müsbət təsirini göstərəcək”.

YAP Xətai rayon təşkilatının sədri ümummilli lider Heydər Əliyevin müdrik ideyalarının zamanı gəldikcə həyata vəsiqə qazandığını bildirərək bu kontekstdə yaxın zamanlarda Bakıda fəaliyyətə başlayacaq İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin məhz Ulu Öndər tərəfindən 2002-ci ildə İstanbulda keçirilmiş İƏT üzv ölkələrinin dövlət və hökumət başçılarının VII Zirvə Görüşündə təklif edildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, sonrakı illərdə Mərkəzin Bakı şəhərində təsis edilməsi təklifi Prezident İlham Əliyev tərəfindən yenidən irəli sürülüb. 2021-ci ilin mart ayında İƏT-in Türkiyənin sədrliyi ilə videokonfrans vasitəsilə keçirilmiş XIV Zirvə Görüşündə Mərkəzin Nizamnaməsi imzalanıb. Belə bir Mərkəzin yaradılmasında məqsəd iqtisadi tədqiqatlara əsaslanan regional əməkdaşlığın qurulması üçün İƏT-ə və üzv ölkələrə yardım etməkdir.

Vüqar Rəhimzadə Zirvə Toplantısında digər mühüm məqamlardan biri kimi Zəngəzur dəhlizinin açılmasının regiona hansı yenilikləri gətirəcəyi barədə səsləndirilən fikirlərdən bəhs edib: ”İqtisadi Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə Toplantısında mən həmkarlarıma Zəngəzur dəhlizi haqqında məlumat vermişdim” söyləyən dövlət başçısı İlham Əliyev bu fikri böyük inamla qeyd etmişdir ki, bu gün deyə bilərəm ki, Zəngəzur dəhlizi reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcək. İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər. Soçi görüşündən sonra Prezident İlham Əliyevin İƏT tribunasından da Zəngəzur dəhlizinin artıq reallığa çevrilməsini bəyan etməsi özündə bir sıra vacib məqamlar ehtiva edir. Azərbaycan son illər Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Zəngəzur dəhlizinin reallaşması regionun nəqliyyat sektorunun inkişafına yeni imkanlar yaradacaq”.

”Ərazilərin azad olunmasından dərhal sonra Azərbaycanın bu torpaqlarda genişmiqyaslı yenidənqurma işlərinə başlaması, yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salması, Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji bölgələri elan edilməsi Azərbaycan Prezidentinin İƏT-də də qurucu lider kimi tanınmasını şərtləndirir” söyləyən Vüqar Rəhimzadə bir daha diqqəti dövlət başçısı İlham Əliyevin rəhbərliyi və tapşırıqları əsasında işğaldan azad edilmiş ərazilərimizdə görülən işlərə yönəldib: ”Bütün kənd və şəhərlər müasir tələblər səviyyəsində qurulur. ”Ağıllı şəhər” və ”ağıllı kənd” layihələri özündə bütün yenilikləri birləşdirir. Artıq bu layihələr çərçivəsində bərpa olunan Zəngilanın Ağalı kəndləri gələn ilin əvvəlində soydaşlarımızı qarşılayacaq. Bu ərazilərdə təkmil infrastruktur yaradılıb. Avtomobil yolları, dəmir yolu çəkilib. Beynəlxalq standartlara cavab verən hava limanları inşa edilir. Artıq Füzuli Beynəlxalq Hava Limanının açılışı oldu. Zəngilanda və Laçında inşa edilən hava limanlarında işlər davam edir. İşğaldan azad edilmiş torpaqlarımızın hər daşı erməni vəhşiliklərinə şahidlik edir. Azərbaycan bu gün qürurludur ki, tarixi torpaqlarına sahibdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ərazilər yenidən əvvəlki görkəmini bərpa edir”.

Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin dövlətlər, xalqlar arasında körpü rolunu oynadığını xüsusi qeyd edən Vüqar Rəhimzadə bildirib ki, yeni reallıqlar bu imkanları daha da genişləndirir: ”Yeni reallıqlara uyğun yeni əməkdaşlıq formatları yaradılacaq. Qarşılıqlı əməkdaşlıq fonunda bölgənin iqtisadi inkişafı daha da sürətlənəcək. Hökumətlərarası regional təşkilat olan İqtisadi Əməkdaşlıq Təşkilatının əsas məqsədi üzv dövlətlərin və bütövlükdə bölgənin davamlı iqtisadi inkişafına töhfə verməkdən ibarətdir.

Aşqabad Zirvə Toplantısında müzakirə olunan aktual məsələlər bir daha sübut etdi ki, yalnız səyləri birləşdirməklə və İƏT-in mövcud imkanlarından daha səmərəli istifadə etməklə qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmaq mümkündür. Zirvə Toplantısının mövzusu özündə bütün hədəfləri və onlara çatmağın mexanizmlərini ümumiləşdirir. ”Birlikdə gələcəyə” çağırışı daim Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının mahiyyətində dayanır. Səylər birləşdirilmədən, təcrübə mübadiləsi aparılmadan, irəliyə doğru birgə addımlar atmadan təkbaşına inkişafa, tərəqqiyə nail olmaq mümkün deyil. Azərbaycan əməkdaşlığa açıq ölkədir. Hesab edirəm ki, bu baxımdan Bakıda fəaliyyətə başlayacaq İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzi qurumun səmərəli fəaliyyətinin təmin edilməsinə lazımi dəstək göstərəcək, hədəflərin reallaşmasına böyük töhfələr verəcək”.




# MEDİA

## “Sərhədsiz Reportyorlar” təşkilatına məktub ünvanlayıb

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ”Sərhədsiz Reportyorlar” təşkilatına məktub ünvanlayıb. ”İki sahil” xəbər verir ki, MEDİA-dan verilən məlumata görə, adıçəkilən təşkilatın rəsmi veb-saytında (https://rsf.org/en/azerbaijan) iki nəfər jurnalistin Azərbaycanda qətlə yetirilməsi barədə məlumat yerləşdirilmiş, lakin hadisənin hansı səbəbdən baş verməsi və əsl mahiyyəti açıqlanmamışdır. Məktubda bu halın qeyri-obyektiv nəticələrin meydana çıxmasına zəmin yaratdığı vurğulanaraq bildirilib:**

”Qeyd edilən məlumat təhrif olunub və qərəzli şəkildə Azərbaycanın əleyhinə istifadə edilir. Ermənistanın 30 il ərzində işğal altında saxladığı ərazilərdə hazırkı vəziyyəti işıqlandıran azərbaycanlı jurnalistlərin həlak olmasının məsuliyyətini Azərbaycanın üzərinə qoymaq cəhdi yolverilməzdir və əsassız yanaşmaların formalaşmasına zəmin yaratmaqdan başqa bir şey deyil.”

Məktubda o da vurğulanıb ki, 2021-ci ilin iyun ayının 4-də AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AZTV-nin operatoru Sirac Abışov Ermənistanın 30 illik işğalından azad olunmuş Azərbaycan Respublikasının ərazilərində öz vəzifə borclarını yerinə yetirərkən Kəlbəcər rayonunun Susuzluq kəndində ermənilərin yolun hərəkət istiqamətində yerləşdirdiyi minaya düşərək şəhid olmuşlar. Onlara olan dərin ehtiram və minnətdarlığın ifadəsi olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ”İşğaldan azad olunan ərazilərdə vəzifə borcunu yerinə yetirmiş bir qrup şəxsin 3-cü dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında” Sərəncam imzalamışdır.

Qeyd olunub ki, 2021-ci ilin iyun ayının 9-da Medianın İnkişafı Agentliyi tərəfindən baş vermiş hadisəyə dair ”Sərhədsiz Reportyorlara” bəyanat ünvanlanmışdır. Göndərilən bəyanatda insident barədə ətraflı məlumat verilmiş və hadisənin dəqiq və qərəzsiz işıqlandırılmasında beynəlxalq vətəndaş cəmiyyəti təşkilatlarının dəstəyinə müraciət edilmişdir.

Məktubda bildirilib: ”Biz bir daha sizə müraciət edərək, iki nəfər jurnalistin müharibənin bitməsindən 7 ay sonra Ermənistanın törətdiyi müharibə cinayətinin qurbanı olduqlarını və erməni hərbiçilərinin yerləşdirdikləri minaya düşərək həyatlarını itirdiklərini bildirir və bu faktı nəzərə almağınızda israr edirik.”

Məktubda, həmçinin xəbər və məruzələrin hazırlanması zamanı Medianın İnkişafı Agentliyi də daxil olmaqla, çoxsaylı mənbələrdən istifadə edilməsinin onların dəqiqliyi, obyektivliyi və etibarlılığının artırılması baxımından xüsusi əhəmiyyət daşıdığı və ixtilafa yol açan halların aradan qaldırılmasında müstəsna rol oynayacağı diqqətə çatdırılmışdır.

# Dünya KİV-ləri Prezident İlham Əliyevin Soçi səfərindən yazır


DÜNYA
Azerbaycan ve Ermenistan sınırların belirlenmesine yönelik adımlar atma konusunda anlaştı
Azerbaycan ve Ermenistan, sınırların belirlenmesi konusunda ikili bir komisyon oluşturulmasına yönelik adımlar atma konusunda anlaşmaya vardı.
Emre Gürkan Abay | 26.11.2021


РБК-УКРАЇНА UA
Президент Азербайджана заявил о готовности "перевернуть страницу" противостояния с Арменией
БАКУ, ПЯТНИЦА 26 НОЯБРЯ 2021 20:08
Фото: президент Азербайджана Ильхам Алиев (flickr com worldeconomicforum)
АВТОР: ДМИТРИЙ КУЗНЕЦОВ
Президент Азербайджана Ильхам Алиев заявил о готовности "перевернуть страницу" противостояния с Ереваном. Он назвал переговоры с лидерами России и Арменией Владимиром П...


УКРИНФОРМ
Алиев выразил готовность «перевернуть стр... отношениях с Арменией
27.11.2021 01:44
Президент Азерб... заявил о готовно... страницу" в длит... Баку с Ереваном
Как передает Укри... агентство Azertag, ... после трехсторонн... Азербайджана Ил... министра Армени... президента РФ Вл...
"Я неоднократно... настроены перев... противостояния...


OBOZREVATEL
Азербайджан и Армения договорились о делимитации границы. Фото и видео
Юрий Сергиенко Мир
Азербайджан и Армения договорились о делими...
Азербайджан и Армения достигли договоренностей насчет создания двусторонней комиссии по делимитации...


SABAH SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM SAĞLIK DÜNYA SEYAHAT
Soçi'de üçlü zirve
ABONE OL Google News
Rusya Devlet Başkanı Vladimir Putin, Azerbaycan Cumhurbaşkanı İlham Aliyev ve Ermenistan Başbakanı Nikol Paşinyan dün Soçi'de bir araya geldi. Ermenistan ve Rusya ile üçlü görüşme öncesinde Azerbaycan, gözaltında bulunan 2 Ermeni asıllı vatandaşın ülkelerine iade edildiğini duyurdu. Rus lider Putin, "Rus barış gücü (Karabağ) bölgede olumlu bir rol oynuyor. Türk- Rus Ortak Gözlem Merkezi de etkin bir şekilde çalışıyor. Ancak yine de bölgede maalesef bazı olaylar yaşanıyor" dedi.


МОСКВА24
Путин выразил мнение, что Азербайджан и Армения должны стремиться к укреплению связей

**Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 26-da Soçi şəhərində keçirilən üçtərəfli görüşü Moldova KİV-ləri tərəfindən də geniş işıqlandırılıb.**

Belə ki, ”Noi.md”, ”tribuna.md”, ”dosr-media.md” və digər informasiya agentliklərində, xəbər portallarında rumın və rus dillərində dərc olunan məqalələrdə üçtərəfli görüşdən sonra mətbuat üçün səslənən fikirlərə geniş yer ayrılıb.

Məqalələrdə keçmiş münaqişənin yaranma səbəbləri, regiondakı yeni geosiyasi vəziyyət, Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması istiqamətində görülən tədbirlər barədə geniş məlumat verilir. Həmçinin dövlət və hökumət başçılarının çıxışlarından mühüm məqamlar oxuculara çatdırılır. Xüsusilə Prezident İlham Əliyevin mətbuata bəyanatında səsləndirdiyi fikirlər önə çəkilib. Moldova mətbuatı, həmçinin Azərbaycan Xarici İşlər Nazirliyinin görüşün nəticələrinə dair bəyanatını da yayıb.

Latviyanın ən böyük xəbər portallarından olan ”tvnet.lv” və ”jauns.lv”-də Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 26-da Soçi şəhərində keçirilən üçtərəfli görüşünə geniş yer ayrılıb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, məqalələrdə Rusiyanın razılığın əldə olunmasında vasitəçiliyi barədə məlumat verilib. Materiallarda, həmçinin Prezident İlham Əliyevin Ermənistan tərəfinə qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə qonşuluq münasibətləri qurmaq təklifinə diqqət çəkilir. Məqalələrdə münaqişənin tarixi barədə ətraflı məlumat verilib.

Qırğızıstanın ”goldenbridgenews.com” portalı öz səhifəsində Azərbaycan Prezidenti İlham Əliyevin Soçiyə səfəri və görüşləri ilə bağlı yazılar dərc edib.

Portal noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş, Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan ilə üçtərəfli danışıqlarla bağlı materialları çap edib.

Saytda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Bəyanat imzalaması, Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş nazirinin mətbuata bəyanatla çıxış etmələri ilə əlaqədar materiallar da yer alıb.

Misirin nüfuzlu ”Əl Dostor” qəzetində ”Azərbaycanla Ermənistan arasında sərhədlərin demarkasiyası barədə razılıq əldə olunub” sərlövhəli məqalə dərc edilib.

Belə ki, məqalədə noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında keçirilmiş görüşün nəticələrinə dair Bəyanat qəbul edildiyi vurğulanıb, Rusiyanın dövlət başçısının Azərbaycan-Ermənistan sərhədlərinin demarkasiyasının bu ilin sonunadək həyata keçiriləcəyi barədə fikirləri yer alıb.

Yazıda diqqətə çatdırılıb ki, Rusiya Prezidenti bir sıra mühüm məsələlər ətrafında da razılıq əldə edildiyini, sərhədlərin demarkasiyasına heç bir manea olmadığını bildirib. Sonda vurğulanıb ki, Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında keçirilən görüşdə Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə də razılıq əldə olunub.

Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüş, eləcə də Azərbaycan və Rusiya prezidentlərinin ikitərəfli görüşü bu ölkənin mətbuatının gündəmindədir.

Rusiya KİV-ə Azərbaycanla Rusiya arasında strateji əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə inkişafı, iki ölkənin liderlərinin qarşılıqlı etimada söykənən şəxsi münasibətlərinin bu əlaqələrin yüksələn xətlə irəliləməsinə müsbət təsirini diqqətə çatdırıblar.




Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında Rusiyanın vasitəçilik rolunun vurğulandığı materiallarda Prezident İlham Əliyevin Ermənistan tərəfində qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə qonşuluq münasibətlərini bərpa etmək təklifi ilə müraciətinə diqqət çəkilir.

Əlcəzairin "Əl Hərir" portalı noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanmış Bəyanatın ərəb dilində mətnini yayıb. Portal, həmçinin AZƏRTAC-a istinadla Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında keçirilən görüş və üç ölkənin liderlərinin mətbuata bəyanatları haqqında xəbər də yayımlayıb.

Materialda diqqətə çatdırılıb ki, 3 saata yaxın davam edən görüşdə sərhədlərin demarkasiyası məsələsində razılıq əldə olunub. Rusiya Prezidenti görüşün konstruktiv keçdiyini vurğulayıb.

Prezident İlham Əliyevin noyabrın 26-da Soçi şəhərinə səfəri, dövlətimizin başçısının keçirdiyi ikitərəfli və üçtərəfli görüşlər, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin, Ermənistanın baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin birgə Bəyanatı Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

Belə ki, Anadolu Agentliyi Azərbaycanın dövlət başçısının Soçi səfərindən bir çox məqamları müxtəlif dillərdə təqdim edib.

"TRT Haber", "Haber Global", "TRT Avaz" telekanalları, "Sabah", "Milliyet" qəzetləri və digər media qurumları Prezident İlham Əliyevin Soçi səfərini mühüm tarixi hadisə kimi dəyərləndirib. Mövzu ilə bağlı xəbərlərdə keçmiş münaqişənin yaranma səbəbləri, regiondakı yeni geosiyasi vəziyyət, Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması istiqamətində görülən tədbirlər barədə geniş məlumat verilir. Həmçinin dövlət və hökumət başçılarının çıxışlarından mühüm məqamlar ictimaiyyətə çatdırılır.

Türkiyə mediası Azərbaycan Xarici İşlər Nazirliyinə istinadla yazır: "Görüş nəticəsində Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin imzaladığı Bəyanatda Azərbaycanın mövqeyini əks etdirən məqamlar tam şəkildə təmin edilib".

Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın Soçi şəhərində noyabrın 26-da keçirilən üçtərəfli görüşü Ukraynanın aparıcı mətbuat orqanlarında geniş işıqlandırılıb. Bu ölkənin nüfuzlu "Ukrinform", "RBK-Ukrayna", "Gordon", "Korrespondent.net", "Obozrevatel" və digər informasiya agentlikləri, xəbər portallarında dərc olunan məqalələrdə üçtərəfli görüşdən sonra mətbuat üçün səslənən fikirlər geniş yer alıb. Xüsusilə, məqalələrdə Prezident İlham Əliyevin Azərbaycanın Ermənistan ilə çoxillik qarşıdurma səhifəsini çevirmək, normal qarşılıqlı fəaliyyət mərhələsinə başlamaq əzmində olduğu barədə bəyanatı, o cümlədən sərhədlərin delimitasiyası, demarkasiyası, nəqliyyat arteriyalarının bərpası barədə fikirləri yer alıb. Prezident İlham Əliyevin bəyanatına istinadla qeyd olunub ki, Azərbaycan hərbi əməliyyatlar bitəndən sonra saxlanılmış 100 nəfərdən çox erməni hərbi qulluqçunu Ermənistan tərəfinə verib.

Məqalələrdə münaqişənin tarixinə toxunularaq, ötən ilin sentyabrında Ermənistanla Azərbaycan arasında baş verən müharibə nəticəsində Azərbaycanın uzun müddət işğal altında olan torpaqlarını azad etdiyi vurğulanıb.

# “Lirə böhranı”...

Beynəlxalq münasibətləri, bölgələrdəki əmin-amanlığı maraqları baxımından ”tarazlayan”, əsas məqsədləri isə nisbətən güclənən dövlətlərə təzyiq göstərmək, ölkələrin daxilində yaratdıqları iğtişaşlarla sabitliyin pozulmasını ”təmin etmək” olan ”superlər” dünyanın siyasi mühitini qaynaq qazana çevirməkdədirlər. Son günlərdə dünyada söz sahibi olduğunu möhkəmlənən iqtisadi inkişafı, hərbi qüdrəti, bölgədə artan təsir imkanları ilə sübut edən Türkiyədəki ”lirə əməliyyatı” bu ölkədə sabitliyin pozulmasına uzanan məkrli əllərin növbəti təxribatıdır.

”Feto camaatını” illərdən bəri maliyyələşdirən, Fələstinə humanitar yardım aparan və ”Azadlıq karvanı” adlandırılan Türkiyəyə məxsus ”Mavi Mərmərə” gəmisinə basqın edən, İstanbulun Əsgər Ocağı Caddəsi adlandırılan ərazisində yerləşən ”Gezipark”da guya ağacların kəsilməsi, hakimiyyətin məşhur Taksim meydanı ilə bağlı planlarına qarşı qərəzli qüvvələrin iştirakı ilə təşkil olunan aksiya, insident zamanı 14 yaşlı Berkan Elvanın ölümü ilə bağlı istintaqı aparan prokuror Mehmet Selim Kirazın terrorçular tərəfindən qətlə yetirilməsi və buna bənzər digər hadisələr, bu gün də Türkiyənin müxtəlif bölgələrində törədilən terrorlar, ”lirə böhranı” qardaş ölkənin qüdrətlənməsindən xoflanan qüvvələrin xəyanətləridir.

Son günlərdə qardaş ölkədə qəsdən yaradılan ”lirə böhranı” əvvəlki təxribatların davamıdır. Türkiyəyə qarşı bu cür münasibətin səbəbləri isə aydındır: Azərbaycanın 30 il Ermənistanın işğalı altında qalan ərazilərinin azad edilməsi, Zəfərimizlə nəticələnən İkinci Qarabağ müharibəsində Türkiyənin xalqımıza siyasi, mənəvi dəstəyi, Şuşada Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Müttəfiqlik Bəyannaməsi, hər iki dövlət başçılarının iştirakı ilə türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizinin təməlinin qoyulması, İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasınını VIII Zirgə Görüşündə qurumun Türk Dövlətləri Təşkilatı adı ilə beynəlxalq aləmdə daha geniş coğrafiyada tanınması Sadalanan, biri -birindən əhəmiyyətli bu məqamlar illərdən bəri islamofobiya adı altında türk xalqlarının, birliyinə əngəl olan, müsəlmanların həmrəyliyini istəməyən qüvvələri narahat edir.

Azərbaycan -Türkiyə birliyinin dünya siyasətinin başlıca amilinə çevrildiyi, hər iki dövlətin birgə iştirakı ilə hazırlanan qlobal layihələrə marağın artdığı vaxtda Türkiyəyə qarşı yönəlmiş hər hansı ədalətsizliklə barışmayacağını bəyan edən Azərbaycan dövləti və xalqı həmişə olduğu kimi, indi də milli-mənəvi dəyərləri bir olan qardaşlarının yanındadır. Terrorun, soyqırımının, günahsız insanların qətlə yetirilməsinin ağrı- acısını illərdən bəri hiss edən , vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasının qarantı olan beynəlxalq hüquq normalarına sadiq qalan, xalqlar və dövlətlərarası əməkdaşlıq münasibətlərinə hörmətlə yanaşan və bəşəri dəyərlərə, humanizmə əməl edən Azərbaycan terrorları, təxribatları daim pisləyib, bu gün də həmin mövqeyində qalır.

Dövlət başçıları arasında bacarığı, qətiyyəti , siyasi iradəsi , verdiyi sözünə sadiqliyi ilə ön sıralarda dayanan Prezident Rəcəb Tayyib Ərdoğanın apardığı genişmiqyaslı siyasi, iqtisadi islahatlar sayəsində qardaş ölkənin güclənməsini istəməyən, ölkədə sabitliyin pozulması üçün terror təşkilatlarını maliyyələşdirən tərəflərin planlaşdırdıqları ”lirə təxribatı” Ermənistanı dəstəkləyən qüvvələrin fitnəkar əməlləri, Türkiyəyə qarşı aparılan siyasi oyunun tərkib hissəsidir. Qardaş ölkədə baş verən son hadisələr təkcə lirənin ucuzlaşması ilə bağlı deyil. Arxasında siyasi güclərin dayandığı təxribat Qərbin maliyyə institutlarının və kəşfiyyat orqanlarının planlaşdırdıqları əməliyyatdır. Süni yollarla lirəni ucuzlaşdırıb qiymət artımı görüntüsü yaratmaqla Türkiyədə daxili sabitliyi pozmağa cəhd edənlər onlara xidmət edən qüvvələrin iştirakı ilə ölkə daxilində etiraz yaratmağa çalışırlar. 2023-cü ildə Türkiyədə keçiriləcək parlament və prezident seçkiləri ərəfəsində ictimai-siyasi fikri hakimiyyətin əleyhinə yönəltmək istəyənlər Qərb kəşfiyyatının ”casus yuvası””na çevrilən PKK-dan, bu terror təşkilatının siyasi qanadı HDP, CHP kimi müxalif partiyalardan istifadə edirlər. Bu kimi uzaq strateji hədəfə çatmağın yolu isə hökuməti erkən seçkilərə məcbur etmək və bunun üçün zəmin yaratmaqdır. Hazırda Tükiyədə törədilən təxribat, ”lirənin ucuzlaşdırılması əməliyyatı” bu məqsədə hesablanıb. Amma Türkiyədə erkən seçkiləri labüd edəcək siyasi və ya hakimiyyət böhranı yoxdur, ölkə daxilində narahatlıq yaradacaq ciddi proseslər də getmir. Rəcəb Tayyib Ərdoğan insanlarla görüşlərində dəfələrlə vurğulayıb ki, 2022-2023-cü illərdə Türkiyənin gələcəyi üçün strateji, konkret addımlar atılacaq, seçkilər 2023-cü ilin iyun ayında keçiriləcək. Aparılan islahatlar nəticəsində iqtidar partiyasının nüfuzu daha da artacaq, ölkənin iqtisadi qüdrəti güclənəcək, xalqın rifahı yüksələcək. Bu çirkin oyunların əsas hədəfi bu islahatları aparan, dünyanın ən güclü lideri Rəcəb Tayyib Ərdoğan faktorudur. ABŞ, Avropa İttifaqı Türkiyə ilə sözdə müttəfiqlik imici yaratsalar da, əslində isə bu dövlətin qüdrətlənməsini, türk dünyasını birləşdirən qardaş ölkənin liderliyini qəbul etmirlər. Türkiyədə istehsal edilən beşinci nəsil silahlardan qorxanların ciddi-cəhdlərinə baxmayaraq xalqın Rəcəb Tayyib Ərdoğana olan etimadına xələl gətirə bilməyəcəklər.



## Qardaş ölkədə təşkil olunan aksiyalar Qərbin Azərbaycan - Türkiyə birliyinə siyasi qısqanclığıdır



Rəsmi Ankaraya qarşı birləşən qüvvələri narahat edən başqa faktor isə Türkiyə-Azərbaycan dostluğu, həmrəyliyidir. 44 gün davam edən İkinci Qarabağ müharibəsində tarixi, mədəniyyəti, etnik kökləri, dili, dini, milli dəyərləri, maraqları eyni olan, birlikləri ilə dünyaya nadir əməkdaşlıq formulunu göstərən Türkiyə ilə Azərbaycan prezidentlərinin imzaladıqları Müttəfiqlik Bəyannaməsi çoxlarına vurulan zərbə idi. Prezident İlham Əliyevin ”Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir” sözləri bir əsr bundan əvvəl türk dünyasının aparıcı qüvvəsi olan Azərbaycanı parçalayanları narahat edir. Beynəlxalq müstəvidə diqqət çəkən qlobal enerji, nəqliyyat layihələrinin reallaşmasında, Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatında birgə çalışan Türkiyə ilə Azərbaycanın müdafiə sahəsindəki iş birliyi maraqları naminə rəzil Ermənistanı dəstəkləyənlərin geopolitik siyasətlərini alt-üst edir. Həmin qüvvələr türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizinin bərpasını da istəmirlər. Prezident İlham Əliyevin ”Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq”, ”Bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları bizim birliyimizi göstərir. İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan əziz qardaşım, sayın Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı, durdurdu. Dedi ki, Türkiyə Azərbaycanın yanındadır və müharibənin ilk saatlarından son dəqiqələrinə qədər əziz qardaşımın və Türkiyə Cümhuriyyətinin, qardaş türk xalqının dəstəyi bizə əlavə güc verirdi. Bu siyasi və mənəvi dəstək bizi ruhlandırırdı. Türkiyənin bütün yerlərindən gələn mesajlar, təbriklər, dəstək, həmrəylik ifadələri bir daha bütün dünyaya bizim birliyimizi nümayiş etdirmişdir” sözləri Türkiyənin qüdrətlənməsini istəməyənlərə, Ermənistanı təkrar müharibəyə sövq edənlərə, təxribatlar törədənlərə də mesajdır. Türk birliyinin sarsılmazlığına növbəti xəbərdarlıq Prezident Rəcəb Tayyib Ərdoğanın ”Azərbaycan ailəmizin üzvüdür”, ”Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür” sözləri, ”Türkiyə olaraq, azadlıq mübarizəsində olduğu kimi, bərpa işlərində də qardaşlarımıza hər cür dəstəyi veririk, verməkdə də davam edəcəyik” çağırışıdır.

***Xuraman İsmayılqızı***

# “Zəngəzur dəhlizi artıq reallığa çevrilir”

”Prezident İlham Əliyevin Aşqabaddakı çıxışında bir çox məqamlar var idi. İlk olaraq İƏT Azərbaycanın töhfələridir. Çünki, bilirik ki, Qoşulmama hərəkatında və onun sədri yolunda, həm Covid-19-a qarşı mübarizə və beynəlxalq birliyin yaradılması, həm də Qoşulmama hərəkatının beynəlxalq əlaqələrinin genişləndirilməsi məsələsində mühüm işlərə imza atılıb”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Asif Nərimanlı deyib.

Onun sözlərinə görə, Azərbaycanın pandemiyaya qarşı mübarizədə BMT tərəfindən dəstəklənən təşəbbüsləri var. ”Prezident İlham Əliyev də bu mesajı verdi ki, eyni təcrübəni istənilən əməkdaşlıq təşkilatı ölkələri ilə də bölüşə bilərlər. Bu məsələnin birinci tərəfi odur ki, İƏT üçün atıla biləcək addımlar var. Digər tərəfdən isə iki ən mühüm məsələlərdən biri Zəngəzur dəhlizi ilə bağlı deyilənlər idi. Prezident İlham Əliyev bildirdi ki, Zəngəzur dəhlizi artıq reallığa çevrilir və İƏT-ə üzv olan ölkələri də bu dəhlizdən istifadə etməyə dəvət etdi. Bilirsiniz ki, İƏT-ə üzv olan ölkələr Pakistan, Əfqanıstan, Cənub-Şərqi Asiya ölkələridir, o cümlədən Mərkəzi Asiya ölkələri, həmçinin Türkiyə və İran da bu təşkilatın üzvüdür. Soçi görüşündən sonra belə bir açıqlama verilməsi artıq həmdə onun mesajıdır ki, Azərbaycan istədiyinə nail olub. Çünki, bilirik ki, görüşdən öncə Ermənistan tərəfi Zəngəzur dəhlizi ilə bağlı öz mövqeyini ortaya qoydu, yəni anlaşmadan çıxıldı. Xüsusən də həmin dəhlizin dəhliz kimi yox nəqliyyat yolu kimi açılmasının vacibliyini bildirir və nəzarət buraxılış məntəqəsinin qurulmasını istəyirdi. Soçi görüşündə 10 noyabr və 11 yanvar bəyanatlarına istinad edilməsi onu göstərdi ki, burada Ermənistanın mövqeyi qəbul edilmir, Azərbaycanın istəyi qəbul edilib. Bundan sonra Prezident İlham Əliyevin Aşqabadda İƏT ölkələrini Zəngəzur dəhlizindən istifadəyə çağırması o deməkdir ki, artıq bu məsələ həll edilib, artıq reallığa çevrilib. Bununla yanaşı isə post-münaqişə dövrü ilə bağlı verdiyi mesajlar var ki, bu dövr 3 istiqamətə ayrılır. Birincisi odur ki, arıtq münaqişə bitib, bunu Azərbaycan Prezidenti növbəti dəfə bir xatırlatma ilə gündəmə gətirib. İkinci tərəfi isə işğal dövründə Ermənistanın ümumiyyətlə İslam abidələrinə qarşı törətdiyi vandalizmin gündəmə gətirilməsidir. Bilirik ki, erməni lobbisi müharibədən sonra Azərbaycan, xristian abidələrini məhv edir kimi iddialar irəli sürüb. Belə bir məqamda Prezident İslam ölkələrinə də çalışırdı ki, Ermənistanın işğal dövründə məhv etdiyi İslam abidələrinin bərpası prosesində iştirak edə bilərlər. Bu həm də İslam ölkələrinin dəstəyinin əldə edilməsinə hesablanmışdır. Digər məqam isə işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılmasıdır, burada Prezident İlham Əliyev ərazilərdə görülən işlərdən danışdı. Həm də burada İlham Əliyev sərmaye mühitindən və iqtisadi inkişafdan da bəhs etdi. Xarici ölkələr sərmaye mühitinin yaxşı olduğu ölkələrə kapital yatırırlar. Belə bir məqamda xüsusən də işğaldan azad edilmiş ərazilərin bərpası prosesində Azırbaycanın buna ehtiyacı var. Dövlət başçısı bununla bağlı Aşqabadda çağırışlar etdi”.



***Rüqəyya Orucova***

# Fransa və Ermənistanı eyni dəyərlər birləşdirir



44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizlə yeni səhifə açılıb. Regionda yeni reallıqlar yaranıb. Azərbaycan diktə edən tərəf kimi çıxış edir. Qarşı tərəfə sülh razılaşmasını təklif etsə də Ermənistan hələ Minsk qrupu həmsədrlərindən cavab gözləyir. Amma xatırlatmaq istərdik ki, işğalçı dövlət 30 ilə yaxın dövrdə havadarlarının dəstəyi ilə sülh danışıqlarına imitasiya naminə qatıldığının eyforiyasından ayılmasa da 44 günlük Vətən müharibəsindən aldığı dərsi unutmamalıdır. Tarixi Zəfəri ilə regionda və dünyada yeni reallıqlar yaradan Azərbaycan təkmil sülh modelini ortaya qoymaqla yanaşı, bu Bəyanatı da səsləndirir ki, bu təklif masa üzərində uzun müddət qala bilməz. Azərbaycan bu bəyanatı ilə artıq 30 illik işğal dövrü olmadığını qarşı tərəfə xatırlatma edir. Bu gün Qarabağın döyünən ürəyi Şuşamız azaddır. Şuşada, Cıdır düzündə Novruz tonqallarının yandırılması, ”Xarıbülbül” musiqi festivalının, Vaqif Poeziya Günlərinin keçirilməsi, iki qardaş, dost ölkə-Türkiyə və Azərbaycan arasında Müttəfiqlik sənədinin-Şuşa Bəyannaməsinin imzalanması 28 il işğal altında olsa da əyilməyən, sınmayan, öz ləyaqətini, Azərbaycanın milli ruhunu qoruyan Şuşanın tarixi sahibinə qayıtdığı üçün yaşadığı sevincin nümayişidir. Torpaq, Vətən sevgisi, bir qarış torpağı belə düşmənə verməmək əzmi, gücü Qələbəmizi şərtləndirdi. ”Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə hazır olmalıyıq” söyləyən ulu öndər Heydər Əliyev sanki uzaqgörənliklə dünəndən bu günə səslənmişdir. Dahi rəhbərin ”Bizim məqsədimiz müharibə etmək deyil, ordumuz ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını təmin etmək üçün lazımdır” tezisi müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordunun güclü, qüdrətli olmasının müharibə şəraitində yaşayan ölkə üçün önəmini bir daha nümayiş etdirirdi. 27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdən Azərbaycan ərazilərinə hücumlarına cavab olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin ”Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!” əmrini verməsi ilə başlanan yol Qarabağın tacı Şuşamızın işğaldan azad edilməsinə qədər gəlib çatdı. Dövlət başçısı İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanın ”Qarabağ Ermənistandır və nöqtə” sərsəm bəyanatına cavab olaraq söylədiyi ”Qarabağ Azərbaycandır və nida işarəsi” 44 günlük İkinci Qarabağ müharibəsinin rəmzinə çevrildi.

Bunları bir daha təhlil etməyimiz səbəbsiz deyil. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub. Ermənistan keçmişlə yaşasa da Azərbaycan daim irəliyə baxır, hədəflərə doğru irəliləyir, işğalçı dövlətə də keçmişlə deyil, gələcəklə yaşamağı tövsiyə edir. Təbii ki, ermənilərin illərdir xalqımızın başına gətirdikləri faciələr, Vətən müharibəsi zamanı, həmçinin 10 noyabr razılaşmasına əsasən Kəlbəcər, Ağdam və Laçını boşaldarkən törətdikləri vəhşiliklər unudulmayıb, həmişə xalqımızın yaddaşında qalacaq. Yeni reallıqlara uyğun yeni addımların atıldığı bir zamanda Ermənistanın atəşkəsi pozmaq, təxribatlar törətmək cəhdləri birmənalı qarşılana bilməz. Təbii ki, onların bu yolu tutmalarında dünyanın göstərdiyi diqqət və dəstək də az rol oynamır. Ermənistanın baş naziri Nikol Paşinyanın bu günlərdə müsahibəsində əsassız iddiaları, sərsəm bəyanatları da havadarlarının yaratdığı dəstək mühitindən irəli gəlir. 10 noyabr üçtərəfli Bəyanatına ilk gündən narazılıqlarını ifadə edən dövlətlər, xüsusilə Fransa zaman-zaman atdığı addımları ilə erməni sevgisinin səbəblərini də açıqlayır. Təbii ki, atılan addımlara, törədilən təxribatlara görə ciddi təzyiqlər göstərilsə də Ermənistan çətin ki, bir də belə istəkdə bulunar. Fransa kimi ikili siyasəti, erməni sevgisini nümayiş etdirən dövlətlər istər 30 ilə yaxın işğal zamanı, istər Vətən müharibəsi, istərsə də postmüharibə dövründə çirkin niyyətini qabarıq şəkildə ortaya qoyaraq maraqlarını Ermənistanın vasitəsilə həyata keçirməyə cəhd göstəriblər. Fransa parlamentinin Dağlıq Qarabağın müstəqilliyinin tanınması ilə bağlı qanun layihəsini qəbul etməsi də Azərbaycanın Qələbəsini həzm edə bilməmələrindən irəli gəlirdi. Azərbaycan üçün adi kağız parçasından başqa bir şey olmayan bu sənədlər Fransa kimi özünü ”ədalət carçısı” qiyafəsində təqdim edən dövlətlərin siyasətinə bir daha işıq saldı.

ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransadan neytrallığı qorumaq, ədalətli yanaşma ortaya qoymaq tələb olunsa da fürsət düşən kimi Ermənistana dəstəyini əsirgəməyib, bunu bəzən açıq, bəzən isə gizli şəkildə büruzə verib. Bu fakt hər kəsə məlumdur ki, Fransa hərbi əməliyyatların ilk günündən ermənilərin maraqlarından çıxış edərək işğalçılığa və separatizmə dəstək verdi. Bütün bunlar dünyanın gözü qarşısında baş verdi. Amma ”nədənsə” ”demokratiyanın, ədalətin beşiyi” sayılan ölkələr susmağı daha məqsədəuyğun hesab etdilər və bu gün eyni proses davam edir. Fransa prezidenti Emmanuel Makron hərbi əməliyyatların dayandırılması, Azərbaycana qarşı beynəlxalq rəy formalaşdırılması və cəza tədbirləri həyata keçirilməsi məqsədilə ciddi səylər göstərdi. Makron başda olmaqla Fransa Xarici İşlər Nazirliyi ardıcıl şəkildə bəyanatlar verərək Ermənistanın işğalçılıq siyasətinə dəstək nümayiş etdirdilər. Fransa aşıq-aşkar Azərbaycana qarşı qərəzli mövqeyini ortaya qoyur. Fransa kimi ədaləti maraqlarının arxasında gizlədən dövlətlər artıq tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi barədə fikirlər yaratmağa, status məsələsini qabartmağa başladılar. Dövlət başçısı İlham Əliyev bu cəhdlərə cavab olaraq ”Mən müharibə başa çatandan sonra noyabrın 10-da statusun yerini göstərmişdim. O, hələ oradadır və orada qalacaq yana-yana, əbədi. Ona görə bu məsələ ilə də bağlı başqa fikir ola bilməz” fikirlərinin davamı olaraq bu məqamı da xüsusi qeyd etmişdir: ”Bu gün Fransada və Amerikada bu məsələ ilə bağlı reallığı əks etdirməyən bəyanatlar səslənəndə haqlı olaraq Azərbaycan xalqı bundan narazı olur ki, münaqişə öz həllini tapmalıdır. Mən demişəm, deyin necə həll olunmalıdır? Mən deyirəm, mən Azərbaycan Prezidenti deyirəm, mən bu məsələni həll etmişəm, vəssalam!”

Fransanın mövqeyi və cəhdləri həmsədrlik institutunun tam məhv edilməsinə istiqamətlənmişdir. Parisin hazırkı cəhdləri həm də bölgədə atəşkəsin təmin olunmasına və Rusiyanın münaqişənin həlli ilə bağlı göstərdiyi səylərə qarşı yönəlib. Fransa Rusiya və Türkiyənin münaqişənin həlli istiqamətində fəallığını həzm edə bilmir, bu ölkələrin göstərdiyi səylərin müsbət nəticəsindən ciddi narahatlığını gizlətmir.

Düşünürük ki, istər işğal, istər Vətən müharibəsi, istərsə də postmünaqişə dövründə Azərbaycanın mənfi imicinin formalaşdırılması istiqamətində cəhdlər göstərən Fransa öz tarixi keçmişinə nəzər salsa, daha yaxşı olar. Fransa əli milyonlarla insanın qanına batmış, ayrı-ayrı xalqlara qarşı soyqırım törətmiş ölkədir. Fransa Əlcəzairdə, Vyetnamda, Mərakeşdə, Cibutidə, Çadda, Qabonda, Tunisdə milyonlarla dinc sakini qətlə yetirib. Özünü ”insan haqlarının və demokratiyanın vətəni” sayan Fransa tarixi ilə üzləşməkdən ona görə qorxur ki, insan haqları və demokratiya ilə bir araya sığmayan bəşəri cinayətlər törədib. Bu fikir hər zaman səslənir ki, Fransa rəhbərliyinin ermənilərə sonsuz sevgisinin kökündə qanlı cinayətlər, soyqırım və çoxsaylı qətliamlar dayanır. Hər iki ölkəni eyni dəyərlər birləşdirir.

Onu da qeyd edək ki, son dövrlər Fransanın rəsmi strukturları tərəfindən Azərbaycana doğru ünvanlanmış müsbət jestlərin ömrü çox çəkmədi. Qarabağda hazırda da mövcudluğunu davam etdirən ünsürlərin noyabrın 15-19-da Fransaya səfəri və bu ölkənin ayrı-ayrı ərazi vahidləri ilə əlaqələr qurmaq cəhdləri, isti qarşılanmaları heç bir hüquqi əsası olmayan və Fransanın özünün qanunlarına zidd haldır. Hələ 2019-cu ildə qondarma ”Dağlıq Qarabağ respublikası” ilə Fransanın bəzi əyalətləri arasında imzalanmış ”sənədlər” Fransa məhkəmələri tərəfindən ləğv edilib. Əgər bu gün də Qarabağdakı ünsürlərin Fransaya səfərinə və müxtəlif ərazi vahidlərinin, dövlət strukturlarının rəhbərləri, senatorlarla görüşünə şərait yaradılırsa, deməli ortada rəsmi Parisin konkret mövqeyi var və bu qanunazidd hallara görə məsuliyyəti də məhz Fransanın rəhbərliyi daşıyır. Əvvəldə də qeyd etdiyimiz kimi, yaxşı olardı ki, Fransa Yeni Kaledoniya, Korsikada müstəqillik tələblərini necə boğduğuna izahat versin. Həmin ərazilərdə müstəqillik tələblərini qulaq ardına vuran rəsmi Paris digər ölkənin ərazisində qanunsuz şəkildə dövlət qurmaq istəyən separatçılara və terrorçulara niyə meydan verir? Fransa milyonlarla müsəlmanın hüquqlarının pozulduğu, diskriminasiyaya məruz qaldığı bir ölkədir. Özünü guya haqqın tərəfdarı kimi təqdim edən Fransa rəsmiləri, senatorları və s. öz ölkələrində mövcud olan bu eybəcərliklər barədə niyə susurlar? Fransa legionunun Afrika qitəsində törətdiyi soyqırımlar mövzusu süni şəkildə qapadılır, əvəzində isə ”erməni soyqırımı”, ”Qarabağdakı ermənilərin hüquqları”, ”Azərbaycanın Ermənistana qarşı təcavüzü” kimi qondarma məsələlər gündəmə gətirilir. Nəyə görə bu günə kimi rəsmi Paris İŞİD terrorçu qrupları ilə işbirliyi haqqında irəli sürülən ittihamlara, təqdim olunmuş təkzibedilməz faktlara münasibət bildirmir?

Təbii ki, cavabını gözləyən çoxlu sayda suallar səsləndirmək olar. Amma dünya güclərinin hələ də ”kar”, ”kor” xəstəlikləri davam edir və bununla da dünyanın sözün əsl mənasında hüquq problemini yaşadığını açıqlayır.

Məlumdur ki, ”TRT World” Fransa xüsusi xidmət orqanlarının İŞİD və PKK ilə gizli əlaqələrini ifşa edən ”Zavod: Gizli Fransız Əməliyyatı” adlı sənədli film yayımlayıb. Azərbaycan ictimaiyyəti bu sənədli filmdə əksini tapan məqamları təəccüblə qarşılamayıb. Çünki Vətən müharibəsi dövründə Fransanın Azərbaycanın yaşayış məntəqələrini, dinc insanları atəşə tutan, terror aktları törədən Ermənistanı açıq şəkildə himayə etməsi, ona humanitar yardım adı altında təyyarələrlə silah-sursat daşıması, terrorçuluğu maliyyələşdirməsi ortada idi. Fransanın Vətən müharibəsi dövründə suriyalı döyüşçüləri, terrorçu dəstələri Azərbaycana qarşı istifadə etməsinə dair də geniş informasiyalar vardır. Buna baxmayaraq, Fransa Azərbaycana böhtan ataraq guya suriyalı terrorçuların Azərbaycan tərəfindən döyüşməsi barədə dezinformasiyalar yaydı. Azərbaycan dövlətinin bu iddialara sübut tələblərinə qarşı Fransa nə müharibə dövründə, nə də sonra bir fakt belə ortaya qoya bilməyərək rüsvay oldu. Bu sənədli film Fransa rəhbərliyində təmsil olunan şəxslərin beynəlxalq terrorçuluğa dəstək verməklə bəşəri dəyərlərə xəyanətinin növbəti sübutudur.

Aparılan təhlil Azərbaycan və Ermənistan arasında fərqin mənzərəsini yaradır: bir tərəfdə praqmatik, realist siyasət nəticəsində cənnət quran Azərbaycan, digər tərəfdə mifologiyanı, uydurmaları dövlət siyasətinə çevirən Ermənistan. Ermənistan həqiqətən xilas olmaq istəyirsə, Azərbaycanın təklif etdiyi sülh sazişini təqdir etməli, bölgədə əməkdaşlığın bərpa olunması ilə bağlı təşəbbüslərə qoşulmalıdır. Fransa kimi güclər erməni sevgisini işğalçıya taxribatlarına, əsassız iddialarına deyil, uğurlu gələcəyinə xidmət edəcək sülh müqaviləsinin imzalanmasına dəstəkləri ilə ifadə etsələr yaratdıqları etimadsızlıq mühitini də bərpa edərlər.

***Yeganə Əliyeva***

# Rus ekspertlər: Soçidə Rusiya və Azərbaycanın diplomatik qələbə qazandığı böyük geosiyasi oyun getdi

***Xəbər verdiyimiz kimi, oktyabrın 26-da Soçidə Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan və Rusiya prezidentləri ilə Ermənistanın baş naziri arasında görüş keçirilib. Bakı görüşün nəticələrini müsbət qiymətləndirir, çünki Azərbaycan tərəfi əsas məsələlər üzrə öz mövqelərini irəli sürə bilib.***

Xüsusilə, Vladimir Putin Azərbaycan və Ermənistan arasında sərhədin demarkasiyası və delimitasiyası mexanizmlərinin ilin sonuna kimi yaradılacağını açıqlayıb. O, (Paşinyanın daim bu tərifdən yayınmağa çalışmasına baxmayaraq), çıxışında "nəqliyyat dəhlizləri" ifadəsini də işlədib. Birgə bəyanatda regionun iqtisadi potensialının üzə çıxarılması üçün tez bir zamanda konkret layihələrin həyata keçirilməsinin zəruriliyindən bəhs edilir.

Rusiyalı politoloqlar Aleksey Naumov, Aleksandr Artamonov, İqor Korotçenko, Dmitri Verxoturov və Sergey Markov Soçi sammiti görüşünü şərh ediblər. Ekspertlərin şərhlərinizi oxucularımıza təqdim edirik.




**Aleksey Naumov:**

-Soçidəki görüş həqiqətən də çox vacibdir. Əlbəttə, görüş əlamətdar, deyərdim ki, tarixi idi. Lakin başa düşmək lazımdır ki, biz münaqişənin nəhayət, tezliklə həllini hələ gözləyə bilmərik, çünki reallıqda Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası mexanizmi yaradılmalıdır, lakin bu proses ləngiyə bilər.



Rusiyanın bu proseslərdə iştirakının davam etməsi çox vacibdir. Biz görürük ki, Moskva özünü beynəlxalq münasibətlərdə məsuliyyətli tərəfdaş və iştirakçı, vəziyyəti şansa buraxmayan bir ölkə kimi göstərdi.

Yaxın vaxtlara qədər münaqişənin hər iki tərəfində narazı olanlardan ittihamlar eşidilirdi ki, onlar bu münaqişəni həll etmək və onunla daha da məşğul olmaq istəmirlər, yalnız öz siyasi mənfəətlərini təmin etmək istəyirlər. Əslində, bunun belə olmadığını gördük. Rusiya bu çətin və bəzən heç də heç də yaxşı nəticə verməyən işi davam etdirir, çünki əvvəldə qeyd etdiyim kimi, hər iki tərəfdən Rusiyadan narazılıq var.

Tərəflərin mürəkkəb sərhəd münaqişələrindən sonra belə sərhədlərin demarkasiyası və delimitasiyası mexanizminin yaradılacağını söyləməyə davam etməsi vacibdir. Ümid etmək istərdim ki, buna baxmayaraq, ən qısa zamanda tamamlanacaq. Ancaq başa düşmək lazımdır ki, problem mürəkkəbdir və vəziyyətdən yeganə çıxış yolu davam edən dialoqdur. Rusiya bu dialoqa və regionda sülhün bərpasına kömək edir.

**Aleksandr Artamonov:**

- Soçidə keçirilən üçtərəfli sammitin ən mühüm nəticəsi Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə ikitərəfli razılaşmanın əldə olunmasıdır.



Müharibə bitdikdən sonra ilk dəfə olaraq iki dövlət dövlət suverenliyi ilə bağlı ən mühüm məsələ üzrə ikitərəfli komissiya yaratmaq qərarına gəldi və birbaşa dialoqa başladı. Müqayisə üçün qeyd edək ki, Bakı və İrəvanın Moskvanın vasitəçiliyi ilə keçdiyi yolu bir neçə ay ərzində qət etmək İsrail və Fələstinə on ildən çox vaxt aparıb. Digər mühüm nəticə isə Nikol Paşinyanın insanlara iş verə biləcək birgə layihələrlə bağlı açıqlamasıdır.

Ehtimal olunur ki, bu, vahid logistika Avrasiya sisteminin yaradılması üçün Zəngəzur dəhlizindən gedir. Rusiya üçün mühüm nəticə onun Cənubi Qafqazda səriştəli rolunun təsdiqidir, çünki ötən ilin noyabrında müharibəyə son qoyan Moskva olub və indi Soçidə indiyədək gözlənilməz İrəvanla birbaşa əlaqə qurulub. Moskvanın iki liderə təqdim etdiyi simvolik zeytun budaqları Kremlin sabitliyin mərkəzi, yeni gəminin batmasına mane olan nöqtəsi kimi çıxış etmək istəyini açıq şəkildə təsdiqləyir.

İki liderin dekabrın 15-də Brüsseldə gözlənilən görüşü Soçidə əldə olunan nəticələri möhkəmləndirməlidir. Təbii ki, bütün mübahisəli məsələlərin yekun həlli hələ çox uzaqdadır (məsələn, Azərbaycanda saxlanılan, Paşinyan inadla "müharibə əsirləri" və "girovlar" adlandırdığı diversantların statusu ilə bağlı razılaşmalar), amma buzlar qırılıb. Ən əsası isə: sərhədin delimitasiyası üçün ilk dəqiq tarixlər müəyyən edilib - bu ilin sonuna qədər. Bu da səmərəli görüşün sanballı və görünən nəticəsidir.

**İqor Korotçenko:**

- Bu görüş Rusiya və Azərbaycan üçün böyük diplomatik qələbədir. Paşinyan noyabrın 9-da Putinlə keçiriləcək sammitdə iştirakdan imtina edib, əvəzində Aİ ilə Brüsseldə alternativ sammit təşkil edib. Bu şəraitdə Moskva sərt demarş etdi, diplomatik kanallarla Paşinyana başa saldı ki, o, bundan yaxa qurtarmayacaq. Buna görə də Paşinyan Soçiyə uçdu.

Mən diqqəti Rusiya Prezidenti Putinin Azərbaycan Prezidenti Əliyevlə necə görüşdüyünə və onun çox böyük dostu kimi salamlamasına çəkdim. Putinin Əliyevə qarşı necə müsbət, mehriban, yoldaş münasibəti olduğunu görmək olar və bu, görüşün kadrlarında çox nəzərə çarpırdı. Paşinyan küncdə oturmuşdu, gözləri vəhşicəsinə parıldayırdı.




Bu sammitdə Putin və Əliyevin Paşinyan və Çarlz Mişel tandemi əleyhinə siyasi tandemdə hərəkət etməsi tamamilə açıq və başa düşüləndir. Burada böyük bir geosiyasi oyun gedirdi: Cənubi Qafqazda təhlükəsizlik məsələlərinin həllində əsas oyunçunun kim olacağını göstərmək baxımından- Rusiya Azərbaycana tandemi, yoxsa Paşinyan və Ermənistanın kiçik tərəfdaş kimi birgə hərəkət etməli olduğu Aİ.

Mən hər şeyi görüşün nəticələrinə endirməzdim, bu, Rusiya və Azərbaycanın diplomatik qələbə qazandığı böyük geosiyasi oyun idi. Bu görüşün mahiyyəti və əsas məqamıdır.

İndi görüşün əsas hissəsinə gələk. Fakt budur ki, Zəngəzur nəqliyyat dəhlizi Putinin şəxsi təşəbbüslərindən biridir. Erməni şərhçilər isə qışqırmağa başlayanda ki, biz bu layihənin həyata keçirilməsinə imkan verməyəcəyik, onlar təkcə Azərbaycanın yox, daha çox prezident Putinin əleyhinədirlər. Ona görə də Putin hər şeyi aydınlaşdırdı və "dəhliz" sözünü qeyd etdi.

Gəlin görək "koridor" sözünün mənası nədir. Bu, Ermənistan ərazisindən keçən ekstraterritorial dəhliz olacaq, burada İrəvan heç nəyə nəzarət etməyəcək. Mallara, insanlara, nəqliyyata nəzarəti Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhədçiləri həyata keçirəcək. Bu, konkret dəhliz olacaq və Putin bunu açıq şəkildə göstərib.

Bu baxımdan Rusiya ilə Azərbaycanın mövqeləri tamamilə üst-üstə düşür. Əgər Ermənistan özü üçün bütün faydaları başa düşmürsə, bu, çox pisdir. Prinsipcə, nəqliyyat dəhlizlərinin bu cür blokdan çıxarılması sadəcə olaraq regionda yeni iqtisadi aktivlik dalğası verəcək ki, bu da Ermənistan də üçün faydalı olacaq. Belə olan halda biz deyirik ki, Zəngəzur nəqliyyat dəhlizi Putinin şəxsi siyasi təşəbbüsüdür və o, onu region ölkələrinin iqtisadi qarşılıqlı əlaqəsi yolu ilə həyata keçirmək, bununla da hərbi qarşıdurma risklərini azaltmaq niyyətindədir.

Cənubi Qafqazda sülh və sabitliyin olması və bunun Moskvanı qərb istiqamətindəki digər problemlərdən yayındırmaması Rusiya üçün prinsipial olaraq vacibdir. Aydın qeyd olunub ki, sərhədlərin delimitasiyası və demarkasiyası üzrə ikitərəfli Azərbaycan-Ermənistan komissiyası Rusiyanın vasitəçiliyi ilə işə başlayacaq.

Bu, tam olaraq ikitərəfli komissiya olacaq. Burada da Putin Ermənistanın bu mövzunu pedal salması məsələlərindən yayınıb, guya noyabrın 16-da ona qarşı təcavüz edilib. Ümumiyyətlə, bütün aspektlərdə bu, Rusiya və Azərbaycanın böyük siyasi və diplomatik uğurudur", - deyə İ.Korotçenko bildirib.

**Dmitro Verxoturov:**

- Soçi görüşünün nəticələrinə əsasən bir neçə mühüm nüansı qeyd etmək lazımdır. Birincisi, bu, yeni vəziyyətin ciddi və uzun müddətdir olmasının göstəricisidir. İkinci Qarabağ müharibəsindən əvvəlki vəziyyətə qayıdış nəzərdə tutulmur. Buradan belə nəticə çıxır ki, sərhəd insidentləri ilə vəziyyəti sabitləşdirmək cəhdləri uğurlu ola bilməz.



İkincisi, deyə bilərəm ki, erməni tərəfi öz qorxu və nifrətində sıxışıb və bu da ona nəqliyyat dəhlizlərinin açılması ilə bağlı açılan perspektivləri qiymətləndirməyə mane olur. Ticarətin canlanması Ermənistan iqtisadiyyatına yeni imkanlar verəcək.

**Sergey Markov:**

- Əminəm ki, bu görüş müsbət olub və 9 noyabr 2020-ci il tarixli sülh sazişlərinin həyata keçirilməsi və həyata keçirilməsində mühüm irəliləyişdir. Bir neçə spesifiklik var.

Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası və demarkasiyası üçün konkret mexanizmin yaradılması barədə qərar qəbul edilib. İlin sonuna kimi bəzi işçi strukturlar yaradılacaq və onlar işə başlayacaq. Və əsas kimi Rusiya ordusunun Baş Qərargahında mövcud olan və keçmiş Azərbaycan SSR və Ermənistan SSR arasında sərhədlərin harada olduğu aydın şəkildə göstərilən xəritələrdən istifadə olunacaq.




Nəqliyyat dəhlizinə gəlincə, nəqliyyat dəhlizlərinin qarşısının alınması üçün siyasi iradə təsdiqləndi, bu prosesi uzun müddətə uzatmaq mümkün deyil. Həqiqətən də, Vladimir Putin "nəqliyyat dəhlizləri" ifadəsindən istifadə edərək, bunun hansısa ekstraterritoriallıq olacağını ehtimal edirdi. Bu, sadəcə olaraq Ermənistan ərazisindən keçən yol olmayacaq ki, oradan həm azərbaycanlılar, həm də türklər istifadə edə bilər. Siz başa düşməlisiniz ki, orada Ermənistan ərazisindən keçidin təhlükəsizliyini təmin etmək lazımdır - xüsusi təhlükəsizlik, xüsusi iş formatı. Çox güman ki, bu, Ermənistan ərazisindən keçəcək yola Rusiyanın nəzarətinin bir növ analoqu olacaq.

Mənim fikrimcə, Putin və Əliyev bir növ vahid komandadır, Paşinyan bura daxil deyil. O, deyəsən, kənarda dayanıb və bu açıq-aydın görünür. Paşinyanın həm Putindən, həm də Əliyevdən açıq şəkildə uzaqlaşması da nəzərə çarpır.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Tariximizə qəhrəmanlıq salnaməsi yazan əbədiyaşar igidlər!

## Oğuz rayon şəhidi Kamil Atakişiyevin xatirəsi anılıb




Vətən müharibəsinin oğuzlu şəhidi, Cəbrayıl, Qubadlı, Laçın fatehlərindən olan Atakişiyev Kamil Araz oğlunun Vətən torpağına tapşırılmasından 1 il ötür. Şəhidimizin anım mərasimi YAP Oğuz rayon təşkilatının əməkdaşlarının, şəhid ailələrinin və qazilərin, rəsmilərin və rayon ictimaiyyətinin, məktəblilərin iştirakı ilə Xaçmaz kənd Şəhidlər xiyabanında və şəhidimizin evində keçirilib. Əvvəlcə şəhidin məzarını ziyarət edən mərasim iştirakçıları şəhidin əziz xatirəsini ehtiramla yad edib, ruhuna dualar oxunub. Sonra şəhidin ailəsində olaraq, onların problemləri ilə maraqlanıb, yaxınlarına səbr diləyiblər.

Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olan Kamil Atakişiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Qubadlının və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cəbrayılda bir dəfə ayağından yaralanıb, bir neçə gün xəstəxanada yatdıqdan sonra yenidən özü israrla döyüşlərə qatılmışdı. Kamil Atakişiyev noyabrın 5-də Laçın dəhlizində qəhrəmancasına vuruşaraq şəhid olmuşdur. Kamil Atakişiyev noyabrın 27-də Oğuz rayonunun Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Kamil Atakişiyev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın işğal olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

***ZÜMRÜD BAYRAMOVA***



## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailələrini ziyarət edib




Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 29 noyabr 2021- ci il tarixdə Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar şəhərindən olan şəhid Əlizadə Nəriman Nurəhməd oğlunun və şəhid Xəlilzadə Əmrah İnqilab oğlunun ildönümləri ilə əlaqədar olaraq ailələrini ziyarət ediblər. Daha sonra şəhidlərin məzarları ziyarət edilib və dərin ehtiramla yad edilərək üzərlərinə tər gül dəstələri düzüblər.

Allah rəhmət eləsin!

***Rəfiqə***




Qobustan rayonu İcra hakimiyyətinin rəhbərliyi, YAP Qobustan rayon təşkilatının və hüquq mühafizə orqanlarının rəhbərliyi, rayon ictimaiyyəti nümayəndələri Qobustan şəhərindən şəhid olan "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə Əhədov Mehrac İntiqam oğlunun məzarını ziyarət etmişlər. Şəhidin məzarı önünə tər gül dəstələri düzüb, onun əziz xatirəsinə ehtiramlarını bildirib, ruhuna dualar oxunmuşlar. Daha sonra Şəhidin xatirəsinə inşa olunmuş Abidə-Bulaq kompleksinin açılışı olmuşdur. Tədbirdə çıxış edənlər Şəhidimizin keçdiyi döyüş yolundan, göstərdiyi qəhrəmanlıqlardan danışaraq Vətən müharibəsindəki Zəfəri ölkəmizin çoxəsrlik tarixinə yazılan şərəfli səhifə, qəhrəmanlıq salnaməsi kimi səciyyələndirib, düşmən üzərində qazanılmış böyük hərbi nailiyyətin iştirakçılarının daima saygı və iftixarla xatırlanacağını bildirmişlər. Şəhidin yaxınları öz xatirələrini bölüşərək, göstərilən diqqət və qayğıya görə Ölkə Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevaya təşəkkür və minnətdarlığını bildirmişdir.

## Qobustanda şəhid Merac Əhədovun abidə-bulaq kompleksinin açılışı olub



***Rəfiqə***

## Ucarda şəhid Rafiq Abbasovun xatirəsi anılıb



Birinci Qarabağ müharibəsinin şəhidi Abbasov Rafiq Cahangir oğlunun 60 illik yubileyi münasibətilə xatirəsi yad edilmişdir. YAP Ucar rayon təşkilatı Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş Abbasov Rafiq Cahangir oğlunun xatirəsini yad edib. Əvvəlcə rayonun Lək kəndində şəhidin məzarı ziyarət edilib, ruhuna dualar oxunub. Sonra şəhidin adını daşıyan Lək kənd 1 saylı tam orta məktəbində tədbir keçirilib.

Tədbirdə YAP Ucar rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Şəhla Abdullayeva, Lək kənd 1 saylı tam orta məktəbin direktoru Zakir Piriyev, Lək kənd 2 saylı tam orta məktəbin direktoru Sevda Abdullayeva çıxış edərək torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Vətən oğullarının əziz xatirəsinin heç vaxt unudulmayacağını bildiriblər.



Şəhidin həyat yoldaşı Fərqanə Abbasova şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib. Sonra məktəblilər vətənpərvərlik mövzusunda seirlər söyləyiblər.

# Məğlub Ermənistan labirintdə











**Tarixi Zəfərimizdən bir il keçsə də ötən il imzalanan üçtərəfli Bəyanatın şərtlərinə əməl etməyən Ermənistanın son günlərdə törətdiyi təxribatların cavabı atalarımızın miras qoyduğu müdrik kəlamlarla ifadə olunub: ”İlan ulduz görməyincə ölməz”, yaxud ” Yalvarmaqla donuz darıdan çıxmaz”. Reallıq budur ki, bütün məqamlarda çanaq təxribatlar törədən ermənilərin başında çatlayır.**

Bölgədə sabitliyin pozulmasında maraqlı olan qüvvələrin istəklərinə uyğun ermənilərin törətdikləri təxribatların qarşısı Azərbaycan Ordusunun rəşadətli əsgərləri tərəfindən alındı. Düşməni tutduğu mövqelərindən geri çəkilməyə məcbur edən Milli Ordumuzun əsgərləri xeyli silah-sursat ələ keçirdilər. Ermənistanın ”məğrur ordusu” yenə canlı qüvvə və texnika sarıdan itki verərək dəmir yumruğun zərbəsindən qan daman gözləri ilə havadarlarını aradı. Unutdular ki, bir tikə çörək üçün hər gün bir qapıda quyruq bulayan satqınlara, xəyanətkarlara dar məqamda heç kim sahib çıxmaz.

Erməni xislətinin, faşizminin mahiyyətini bu toplum haqqındakı sözləri ilə izah edən yazarlar, siyasətçilər şahid olduqları məqamları qələmə alaraq ermənizmin məkrli mahiyyətini faktlarla göstərirlər. Erməni məfhumunu qana hərisliklə eyni mənada təsəvvür edənlər arasında dövlət səviyyəsində daşnakları dəstəkləyən, saxta ”erməni soyqırımı” iddialarına himayədarlıq edən fransızların da olması o deməkdir ki, terrorçu, vəhşi ermənilər bir millət kimi sivil cəmiyyət tərəfindən qəbul olunmur. Ermənilərin fikirlərini, mənfur niyyət və duyğularını gizli saxlayan məkrli, kələkbaz olduqlarını bir çox yazıçılar qeyd ediblər. Onlara yardım göstərənlərə arxadan zərbə vurmaq da haylara məxsus nankorluqdur. Bu millətin xislətində bicliyi, əclaflığı, alçaqlığı müşahidə edənlər, hətta erməni jurnalistlər belə bu xalqın murdar xüsusiyyətləri barədə həqiqətləri söyləmişlər.

Son iki əsrdə azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırımı siyasəti həyata keçirən ermənilərin 30 il əsarətdə saxladıqları Azərbaycan torpaqlarında törətdikləri dağıntılara barbarlıqdan, vandallıqdan başqa ad vermək olmaz. Tarixi hadisələr də göstərir ki, Azərbaycanla bağlı beynəlxalq aləmdə müsbət rəy yarananda, yaxud yüksək səviyyəli tədbirlər keçiriləndə ermənilərlə birgə onları dəstəkləyənlərin də islamofobiya, qısqanclıq mərəzləri təzələnir. İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə qəbul olunan qərarlardan hürkən, türkçülüyün dünyada möhkəmlənən mövqeyindən təşvişə düşən qüvvələrin göstərişi ilə baş verən təxribatlar ilk növbədə Ermənistanın özünə vurulan zərbədir.

Sabitlik üçün nəzərdə tutulan şərtlərə əməl etməyən, keçi suyu bulandırması kimi murdar niyyətlərinə uyğun təxribatlar törədən, son günlərdəki hərəkətləri ilə sərhədlərdə vəziyyəti gərginləşdirən , arxadan zərbə vurmaq xasiyyətlərini tərgitməyən ermənilər heç vaxt sülh tərəfdarı olmamışlar və olmayacaqlar da. Zəngəzur dəhlizinin bərpasından, bu yolla türk dünyasının birlik və həmrəyliyinin möhkəmlənməsindən qorxan dairələr Ermənistanı yeni müharibəyə hazırlasalar da, son məqamda özlərini təmizə çıxarmaq üçün bəhanələr axtarırlar. Məğlub olsalar belə hələ də havadarlarına arxalanaraq ”Dağlıq Qarabağ respublikası”nın statusunun qalması, oyuncaq ”Minsk qrupunun səlahiyyətlərini davam etdirməsi” kimi sərsəmləmələrini təkrarlayan ermənilərin reallıqla barışmaqdan özgə seçimi qalmayıb. Gorus-Qafan yolunda Azərbaycanın gömrük nəzarəti məntəqəsinin yaradılması separatçılarda şizofreniya əlamətləri yaradıb.

İkinci Qarabağ müharibəsində Ermənistanın fərari ordusunun 80 faizə qədərinin Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilməsindən, döyüş bölgələrində qoyub qaçdıqları, vaxtı ötmüş silah- sursatlarının Bakıdakı Hərbi Qənimətlər Parkında ”xəcalət çəkməsindən” dərs almayan ermənilərin ATƏT-in Minsk qrupunun fəaliyyətinin, ”Qarabağ danışıqları”nın bərpa edilməsi”, ”status” məsələsini yenidən masaya çıxarmaq” istəkləri səhrada qum, dəryada balıq sevdasıdır. Separatçı rejim unutmamalıdır ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatda ”Dağlıq Qarabağ respublikası” adlı qurum, hər hansısa statusla bağlı ifadə yoxdur. Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” Şuşa Bəyannaməsini imzalamaları, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, dünya siyasətinin aktual mövzularından olan və türk dünyasının birləşdirəcək Zəngəzur dəhlizinin təməlinin qoyulması, Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, ”ağıllı kənd”, ”ağıllı şəhər” layihələrinin həyata keçirilməsi, Azərbaycanın regionun qüdrətli ölkə adlandırılması ermənilər hələ də qəflət yuxusundan ayıltmayıb. İşğalçı ölkədə qərbyönümlü və ruspərəst qüvvələr arasında yaranan qarşıdurma, baş nazir Nikol Paşinyanın istefa tələbinin geniş vüsət alması vəziyyəti daha da gərginləşdirir. Amma başqalarının əlində oyuncaq olan ermənilər bunu da unutmamalıdırlar ki, yalvarmaqla darıdan çıxmayan donuzu eşələndiyi yerdən çıxarmaq üçün dəmir yumruq yerindədir. Prezident İlham Əliyevin ”Azərbaycan xalqına müraciət edərək yumruq göstərmişdim düşmənə. Demişdim ki, bu yumruq elə belə yumruq deyil, bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik. Və eyni zamanda bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı yumruq kimi birləşib” sözlərinin sırğa kimi ermənilərin qulaqlarından asmaq vaxtı çatıb. Separatçıların sovetlərin 366-cı alayı ilə birlikdə törətdikləri Xocalı soyqırımının canlı şahidi olan erməni əsilli, Fransada yaşayan jurnalist Berain Siracyan ”Hücumdan əvvəl” məqaləsində yazır: ”Xocalıda baş verənləri öz gözlərimlə gördüm. Hər tərəfdən qan qoxusu gəlirdi. Qarın üzərində düşüb qalmış kimsəsiz, cansız meyitlərdən vahimələndim  Ona görə vahimələndim ki, bu qanı Azərbaycanın, onun gələcək nəsillərinin heç zaman unutmayacağını və susmayacağını anladım. Bu gün ruslar bizimlədir. Bəs sabah? Biz tək qala bilərik” sözləri, ”Olum, ya ölüm” sualının labirintində çabalayan, hələ də üz tutacaqları, qapılarında boyunlarını bükəcəkləri səmti müəyyənləşdirməyən işğalçı ermənilləri düşündürməlidir.

***Xuraman İsmayılqızı***

## “Rusiya Paşinyanı üçtərəfli görüşə məcbur gətirdi”



“Noyabr ayının 26-da baş tutmuş Soçi görüşündə Rusiya tərəfi birmənalı olaraq sərhədlərin delimitasiyası və demarkasiyasını və eyni zamanda Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələni olduqca konkret bir şəkildə Ermənistan qarşısına qoydu”. Bu sözləri SİA-ya açıqlamasında Demokratiya və İnsan hüquqları üzrə komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə deyib.

Onun sözlərinə görə, bu onu göstərdi ki, Rusiya 10 noyabr 2020-ci il sazişinin icrasında maraqlı görünür: ”Bildiyimiz kimi Paşinyan çox çalışırdı ki, görüş Brüsseldə olsun, Şərq tərəfdaşlığı toplantısında və bölgədəki məsələnin həllində Qərbi də cəlb etsin. Görünür ki, Rusiya həmişə olduğu kimi bölgəyə digər qüvvələrin daxil olmasını arzu etmədiyini Soçi görüşündə nümayiş etdirdi. Əslində Rusiya Paşinyanı üçtərəfli görüşə məcbur gətirdi. Hesab edirəm ki, Rusiya Zəngəzur dəhlizinin açılmasında maraqlıdır. Çünki Rusiyanın bu dəhliz vasitəsilə Türkiyəyə və digər ölkələrə çıxışı əldə olunacaq. Ümid edirəm ki, Rusiya dəhlizin açılmasında maraqlı olacaq. Eyni zamanda sərhədlərin tanınması və son olaraq Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin bağlanması ilə məsələ bitəcək”.

***Arzu Qurbanzadə***

# “Rusiya Ermənistanın “işğal” barədə haray-həşirinə əhəmiyyət vermir”



**“44 günlük vətən müharibəsində möhtəşəm qələbədən və N.Paşinyanın ”gizli şəkildə” ”təslim aktı”na qol çəkməsindən dərhal sonra Azərbaycan rəhbərliyi sərhədlərin müəyyənləşməsi istiqamətində fəaliyyətə başlamağı təklif etdi. Ermənistandakı ağır durumu bəhanə edən baş nazir bu məsələdən yayınmağa, sərhədlərin müəyyənləşməsi prosesini mümkün qədər ləngitməyə çalışdı. Ermənilərin bu cür davranışına müəyyən müddət səbrlə yanaşan Azərbaycan hakimiyyəti mayın 12-də Qaragöl istiqamətində ordumuzun 3,5 km irəliləməsi barədə qərar verdi və bununla sərhədlərin müəyyənləşməsi prosesinin ləngidilməsinə bundan sonra imkan verməyəcəyini ortaya qoydu”. Bunu ”Səs” qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.**



Onun sözlərinə görə, Ermənistanın ”işğal” barədə haray-həşirinə əhəmiyyət verməyən Rusiya sərhədlərin delimitasiyası və demarkasiyası üzrə komissiya yaratmaq təklifi ilə çıxış etdi: ”Azərbaycan təkliflə dərhal razılaşdı. Ermənistan da razılığını bildirdi, ancaq dalbadal şərtlər irəli sürməyə başladı. Əvvəlcə delimitasiya və demarkasiya işlərinin aparılması üçün diplomatik münasibətlərin qurulmasının vacibliyi, yalnız bundan sonra sərhədləri müəyyənləşdirməyin mümkün olduğu iddiası ortaya atıldı. Sonra tələb olundu ki, Azərbaycan ordusu əvvəlki mövqelərinə çəkilməli, yalnız bundan sonra danışıqlara başlanılmalıdır. Daha sonra hərbi qüvvələrin sinxron şəkildə çəkilməsi və araya beynəlxalq müşahidəçilərin yerləşdirilməsindən sonra komissiyanın yaradılmasının mümkünlüyü iddia olundu. Bu cür tələbləri, şərtləri irəli sürməkdə davam edən Ermənistan rəhbərliyi noyabrın 26-da Soçidə geri çəkilərək qeyd-şərtsiz üçtərəfli bəyanata qol çəkmək və komissiyanın yaradılmasına razılıq vermək məcburiyyətində qaldı”.

A.Səmədov onu da bildirdi ki, Ermənistan 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il bəyanatlarında nəzərdə tutulan ”Zəngəzur dəhlizi”nin açılmasını ləngitmək üçün də əlindən gələni etdi: ”İlk günlər qızğın fəaliyyətə başlayan üçtərəfli komissiyadan öz nümayəndəsini çəkməklə prosesi 7-8 ay geriyə salmağa nail olan Ermənistan bu istiqamətdə fəaliyyəti gücləndirmək tələbinin altından da imza atdı.

Nəticədə, görüşdə N.Paşinyanın qaldırdığı məsələlər yekun sənədə düşmədiyi halda Azərbaycan prezidentinin tələbləri qəbul olundu və bu tələblərin əks olunduğu Bəyanatı Ermənistan baş naziri imzalamaq məcburiyyətində qaldı”.

*Gülyana*







RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Soçi görüşü kimin-kim olduğunu göstərdi!

**Əslində, Soçidəki görüş üçtərəfli deyildi, dolayısı ilə İlham Əliyev və Nikol Paşinyan arasında baş tutan ikitərəfli görüş idi. Sadəcə, bu görüşü təşkil edən, İkinci Qarabağ müharibəsindən sonra Ermənistan-Azərbaycan münasibətlərindəki gərginliyə son qoyulması üçün təşəbbüskarlıq nümayiş etdirən Rusiya prezidenti Vladimir Putin idi. Ancaq sözügedən məsələyə daha dərindən varsaq, həm də belə nəticə hasil edə bilərik ki, əslində, elə əvvəlki görüşlər də ikitərəfli olub. Sadəcə, Ermənistanın daha əvvəlki cinayətkar liderləri ağalarının arxalarında gizlənən və oradan hürən köpəklər qismində çıxış edirdilər. Fəqət, onlardan fərqli olaraq Paşinyan alçaldılmış fərd qismində və tam şəkildə siyasi, eləcə də revanşistlər tərəfindən fiziki məhv edilməməsi üçün Soçidə deyilən bütün buyruqlara əməl etmək, boyun əymək məcburiyyətinə qaldı.**

Açığı, regionun geosiyasi reallığı 30 il boyunca davam edən stereotipləri kökündən məhv etdi - Azərbaycanın iqtisadi cəhətdən sürətlə güclənməsi, qüdrətli ordu yaratması və bütün bunların fonunda məğlubedilməz liderə malik olması, həmçinin, Rusiyanın Qarabağ münaqişəsindəki mövqeyini dəyişməsinə səbəb oldu. Moskva Bakı ilə münasibətlərinin soyumasını deyil, daha strateji yaxınlığı önəmli saydı, çünki anladı ki, İrəvan bundan sonra da bütün mənalarda onun nökəri olaraq qalacaq - ”otur” desə oturacaq, ”uzan” desə uzanacaq, ”sürün” desə sürünəcək. Bu baxımdan, hətta hakimiyyətdə Sarqsyan, ya da Koçaryan rejimləri olsa idi, yenə də eyni hal yaşanacaqdı - Paşinyanın bəhs etdiyimiz məlum aqibəti...

Hə, onu da deyək ki, bu gün erməni siyasi-ictimai rəyinin iddia etdikləri kimi, Rusiya onları heç də satmayıb və xəyanət etməyib. Əksinə, Rusiya 30 il ərzində onlara ”dam ötrüyü” rolunu oynayıb, üstəlik, bundan sonrakı illərdə də eyni ”örtük” rolu oynanılacaq. Ona görə də regiondakı dəyişiklərin əsas xidməti Azərbaycana məxsusdur. Azərbaycan onunla razılaşmayanları son anda məhz özü ilə hesablaşmağa məcbur etdi!

Halbuki, birinci Qarabağ müharibəsində məğlubiyyət yaşamışdı. Və Azərbaycan özünü hazırda ”uduzmayan” kimi göstərməyə çalışan, lakin quyruq bulayan erməni siyasi-ictimai rəyindən fərqli olaraq birinci müharibədə əsas səbəbləri bəlli olmaqla (!) məğlub olduğunu etiraf edirdi. Azərbaycan reallığı da mərdanə şəkildə qəbul edirdi, ancaq hər şeyə rəğmən özünü ələ alaraq ayağa qalxdı, gücləndi, qüdrətli ordu yaratdı, diplomatik üstünlük qazandı - nəticədə çoxlarının barmaqrarası baxdığı, qələbəyə inanmadığı tarixi zəfərini əldə etdi - heç kimin xrom, ya da girz çəkmələrinə dəsmal çəkmədən!

Azərbaycan 30 il əvvəl dağıdılmış vəziyyətdə idi, düşmənlərinin mühasirəsində idi. Həmin vaxt yanız Ermənistanın deyil, Rusiyanın da, İranın da, Qərbin də Azərbayana münasibətləri, sözsün əsl mənasında, qeyri-səmimilik mövqeyində qurulmuşdu. Üstəgəl, onların hər biri əzəli torpaqlarımızdan qoparmağa cəhdlər edirdilər, amma edə bilmədilər. Bu qədər ağrı-acı, çətinlik, məşəqqətlər içində olsaq da, Azərbacanı parçalaya bilmədilər. İllər ötdü və Azərbaycan onunla hesablaşmağı, ona hörmət etməyi öyrənməyi məcbur etdi. Soçi görüşünün də nəticələri bax, yuxarıda qeyd edilən prosesləri keçməklə gəlib-çıxdı. Təngə gəlmiş Putin, soyuqqanlı Əliyev və bir ayağı ayaqyolunda qalaraq üzüqara düşən Paşinyan-Soçi görüşünün nəticələri üzlərdən aydın görünürdü...

Səs
30 noyabr
2021-ci il

# 63 yaşlı alman "Mançester Yunayted"in baş məşqçisi oldu



"Mançester Yunayted" yeni baş məşqçisini açıqlayıb. "Qırmızı şeytanlar"ın rəsmi saytında yer alan məlumatda deyilir ki, komandanı Ralf Ranqnikə çalışdıracaq.

Almaniyalı mütəxəssislə mövsümün sonunadək müqavilə imzalanıb. 63 yaşlı məşqçi bu vəzifədə Ule Qunnar Sulşeri əvəzləyib.

Qeyd edək ki, Ranqnik "Ştutqart", "Şalke", "Hoffenyam", "Hannover" və "Leyptsiq" klublarında baş məşqçi kimi çalışıb. O, son olaraq Moskva "Lokomotiv"inin idman və inkişaf departamentinin rəhbəri olub.

# Valideyn-övlad münasibətləri necə olmalıdır?



"Ümumiyyətlə, dövrün uşaqları ilə münasibət qurmaq, empatiya qurmaq əvvəlki dövrlərə nisbətən bir qədər çətinləşir. Çünki zəmanənin uşaqları, əvvəlki dövrün uşaqlarından olduqca fərqlidirlər". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Lalə Mehralı deyib.

Onun sözlərinə görə, uşaqlar həm intellekt, dünya görüş baxımından, həm də ümumilikdə bütün sosial-psixoloji vəziyyətlərinə görə fərqli mühitdə böyüdükləri üçün onlar əvvəlki dövrə görə tamamilə fərqlidirlər. "Tutaq ki, əvvəllər deyirdilər ki, uşaqla valideyn arasındakı pərdəni götürmək lazım deyil. Uşaq uşaq yerində, valideyn isə valideyn yerində qalmalıdır. Əvvəllər valideynlə uşağın arasında açıq münasibət yox idi. Lakin indi mütəxəssislər bunu məsləhət görmür. Psixoloqlar hesab edir ki, valideyn-övlad arasında dostluq münasibətləri olmalıdır. Bizim alışdığımız, böyüklərimizdən gördüyümüz pərdə olmamalıdır, münasibətlər tam şəffaf formada, uşağın öz yaşıdı ilə münasibətdəymiş kimi olmalıdır. Bu səbəbdən də hesab edirəm ki, bu münasibətlər uşaqdan-uşağa dəyişməlidir. Elə uşaq var ki, onunla aradakı pərdəni götürmək, valideyn-övlad müstəvisindən dost müstəvisinə keçmək ona effekt verir. Onun həyat biçimində bu münasibət öz təsirini göstərir. Ancaq uşaq da var ki, o, bu cür münasibətdən narahat olur, valideyni valideyn kimi görmək istəyir və açıq münasibət istəmir. Məncə, bu, tamamilə fərdi xarakter daşıyır və buna görə də valideynlər öz uşağını tanıyır, bu səbəbdən də onlar övladları ilə bildiyi üsullarla münasibət qurmalıdırlar".

***Rüqəyya Orucova***

# Xəbərdarlıq:

## Güclü külək, yağış, qar gözlənilir



Bakıda və Abşeron yarımadasında dekabrın 1-i gündüzdən 2-si səhərədək şimal-qərb küləyinin 15-20 m/s, arabir 23-25 m/s, yarımadanın bəzi yerlərində arabir 28 m/s-dək güclənəcəyi gözlənilir. Axşam yağış yağacağı ehtimalı var.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, havanın temperaturu dekabrın 2-də ötən günlərlə müqayisədə 5-7° aşağı enəcək. Azərbaycanın rayonlarında dekabrın 1-i günün ikinci yarısından 2-si gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi arabir 15-20 m/s, ayrı-ayrı yerlərdə arabir 23-28 m/s-dək güclənəcək.

Havanın temperaturu dekabrın 2-də ötən günlərlə müqayisədə 5-8° aşağı enəcək.

Çaylarda sululuğun artacağı ehtimalı var.

# Peyvəndin üçüncü dozası vurulmasa nə olur?



**"Peyvənd sertifikatı" müddətsizdir. SİA-nın məlumatına görə, bu barədə Səhiyyə Nazirliyi və TƏBİB-dən bildirilib. Məlumata görə, hazırda Azərbaycanda "Peyvənd sertifikatı"nın etibarlılıq vaxtı müddətsizdir.**

Bildirilib ki, dünyada COVID-19 əleyhinə vaksinasiyadan sonra yaranan immun cavabın dayanıqlılığı və müddəti istiqamətində elmi tədqiqatlar davam etdirilir. Aparılan tədqiqatların nəticələri açıqlandıqdan, ÜST və digər beynəlxalq səhiyyə qurumlarının tövsiyələri məlum olduqdan sonra bu məsələyə yenidən baxılacaq.

Buster (3-cü doza) isə 2-ci dozadan 6 ay keçdikdən sonra yüksək risk qrupuna daxil olanlara (tibb işçiləri, yaşı 60-dan yuxarı olan şəxslər, autoimmun xəstəlikləri olan şəxslər) vurulması tövsiyyə olunur. Koronavirusun yeni ştammlarının yaranması isə buster dozanın əhəmiyyətini daha da artırır.

Mütəxəssislər belə hesab edir ki, virus dəyişmir, sadəcə olaraq, mutasiyaya uğrayır. Mutasiya nəticəsində isə fərqli ştamlar yaranır. Orqanizmdə yaranmış immunitetin zəifləməsinin qarşısını almaq üçün "buster" doza vacibdir. "Buster" doza qüvvətləndirici hesab edilir və koronavirusa qarşı yaranmış anticisimlərin uzunömürlü olmasını təmin edir.

Xatırladaq ki, Azərbaycanda vaksinasiya prosesinə bu ilin yanvarın 18-dən başlanılıb. Hazırda ölkədə vurulan vaksinlərin ümumi sayı 10 486 650, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 074 275, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 559 863-dür. "Buster" doza üzrə vaksinasiya olunanların sayı isə 852 512 nəfər təşkil edir.

# ŞOK: Tısbağa əti yeyən uşaqlar öldülər!



Tanzaniyanın Zanzibar bölgəsində kədərli hadisə baş verib. Pemba Şimal Bölgəsinin Polis rəisi Cuma Sadi cümə günü hadisədə dəniz tısbağası əti yeyən 22 nəfərin xəstəxanaya yerləşdirildiyini bildirib. "Xəstəxanaya yerləşdirilənlərdən ikisi uşaqdır və onların vəziyyəti ağırdır" deyən Sədi dəniz tısbağası ətinin zəhərli ola biləcəyindən şübhələndiklərini bildirib. O, 3 uşağın tısbağa əti yedikdən sonra öldüyünü də bildirib. Polis rəisi bildirib ki, dəniz tısbağası ətindən nümunələr müayinə olunmaq üçün aidiyyəti qurumlara göndərilib. Oxşar ölümlər Pemba adasında daha əvvəl dəniz tısbağası ətinin istehlakı səbəbindən baş verib.

***Rüqəyya Orucova***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**